# EVDƏ QAL, SAĞLAM QAL!

**Milli Məclisin növbəti plenar iclası keçirilib "Siz Azərbaycanı yaşadır, inkişaf etdirirsiniz"**



Bax 8

**Milli Məclisin növbəti plenar iclası keçirilib**



Bax 10



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 069 (6034) 25 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




*İlham Əliyev: "Neftin qiyməti üç dəfə aşağı düşüb. Amma mən demişəm, bir daha demək istəyirəm və bütün vətəndaşlar bunu bilsinlər, biz heç bir sosial layihəni dayandırmayacağıq, heç bir sosial proqramı ixtisar etməyəcəyik"*

## "Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır"

## Mir Cəlal Paşayevin anadan olmasından 112 il ötür

Bax 6




Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan və elmin, ədəbiyyatın, təhsilin inkişafında misilsiz xidmətlər göstərmiş xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 26 aprel tarixi doğum günüdür. Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir.

## Ramazan ayı insanları gözəl niyyət və xeyirxah əməllər naminə birliyə çağırır



*Bu gün "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayının ilk günüdür. Builki Ramazan ayına dünyada sürətlə yayılmaqda olan virus təhlükəsi şəraitində daxil oluruq. İnsan sağlamlığına ciddi təhlükə olan*

Bax 12

## Və... Ronaldo qayıdır!

Bax 16

*"Yuventus"un futbolçusu Kriştiano Ronaldo gələn həftə İtaliyaya qayıtmağa hazırlaşır. Qol.az "Daily Mail"ə istinadən xəbər verir ki, portuqaliyalı hücumçu və digər legionerlər ölkəyə qayıtdıqdan sonra 14 gün müddətində karantin rejimində olmayacaq.*



## Sərdar Cəlaloğlu: "Əli Kərimli koronavirus şəraitində başına gələnlərdən siyasi reytinq düzəltmək istəyir"



Bax 13

Görünür, artıq "müxalifət" deyilən düşərgədə son aylar bəşəriyyətin sınağa çəkildiyi belə bir məqamda yenə də Azərbaycan dövlətininq qətiyyətli və operativ fəaliyyət göstədiyi müsbət nəticələrə sosial şəbəkələrdən böhtandolu çıxışları müxalifət liderlərinin də əsəblərini gərildib.

## İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar 7600 nəfərə birdəfəlik yardım veriləcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti təzahürüdür...

Bax 6

**Müxalifətin fəaliyyəti erməni maraqları üzərində qurulub**



Bax 14

**Əli Kərilmini Nelson Mnadelanı da ittiham edib?**



Bax 14

**QORXUNC AÇIQLAMA: Ölümlər ikiqat arta bilər**



Bax 16

# "Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır"



*İlham Əliyev: "Neftin qiyməti üç dəfə aşağı düşüb. Amma mən demişəm, bir daha demək istəyirəm və bütün vətəndaşlar bunu bilsinlər, biz heç bir sosial layihəni dayandırmayacağıq, heç bir sosial proqramı ixtisar etməyəcəyik"*



Aprelin 24-də Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib. SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Sonra Prezident İlham Əliyev magistral qaz kəmərinin açılışını etdi və Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bu gün Sumqayıt şəhərinin dayanıqlı qaz təchizatı işində çox əlamətdar bir gündür. Biz Sumqayıt şəhərinə yeni alternativ qaz xəttinin çəkilişini qeyd edirik:

"Bu münasibətlə bütün sumqayıtlıları təbrik etmək istəyirəm. Çünki bu, şəhəri dayanıqlı qazla təmin etmək üçün imkanlar yaradır və eyni zamanda, şəhərin gələcək potensialını da nəzərə alır. Bu vaxta qədər Sumqayıt bir xətt üzərində qazla təmin edilirdi. Əlbəttə ki, Sumqayıtda son illərdə yaradılmış sənaye müəssisələri, sənaye klasterləri əlavə həcm tələb edirdi. Bunu nəzərə alaraq yeni qaz kəmərinin tikintisi zəruri idi. Qaz kəmərinin uzunluğu 60 kilometrdir. Bu, böyük bir inşaat layihəsi olubdur. Qısa müddət ərzində bu kəmər istifadəyə verilir və bu gün artıq fəaliyyətə başlayır.

Bu, birinci növbədə əhalini təbii qazla təmin etmək işində önəmli addımdır. Sumqayıtda qazlaşdırmanın səviyyəsi 100 faizdir. Əlbəttə ki, şəhərin bir xəttin üzərində qidalanması müəyyən problemlər yarada bilərdi, qəza nəticəsində müəyyən problemlər yarana bilərdi. İndi isə bu ikinci xətt həm artan tələbatı ödəyəcək, eyni zamanda, ikinci sığorta layihə kimi sumqayıtlıları təmin edəcəkdir.

O ki qaldı, şəhərin sənaye potensialına, son illərdə Sumqayıt sənaye baxımından çox uğurla inkişaf edir. Burada bir çox önəmli layihələr icra edilibdir. Sumqayıt Texnologiyalar Parkı uzun illərdir ki, fəaliyyət göstərir. Burada 10-dan çox zavod fəaliyyət göstərir. Ondan sonra Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Yüzlərlə hektar torpağı əhatə edən bu böyük ərazidə bütün infrastruktur layihələri, təmizləmə işləri dövlət xətti ilə aparılmışdır və sonra dövlət və özəl sektor orada investisiya qoymağa başlamışlar. Hazırda Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin tikintisi davam edir. Onların arasında əyirici boya fabrikinin tikintisini xüsusi qeyd etməliyəm. Çünki bu, bizim xalçaçılıq sənayemizin inkişafı üçün çox önəmli layihədir. Eyni zamanda, şüşə zavodu da inşa edilir. Biz şüşələri xaricdən idxal edirik və bu zavod işə düşəndən sonra artıq idxaldan asılılığı aradan götürəcəyik.

Sumqayıtda Azərbaycan sənayesinin flaqmanları sayılan iki nəhəng sənaye müəssisəsi inşa edilib - polimer və karbamid zavodları. Bu müəssisələr həm daxili tələbatı tam ödəyəcək, eyni zamanda, böyük ixrac imkanları yaranıb. Bu ixracın əhəmiyyəti ondadır ki, bu, qeyri-neft ixracıdır. Bizim də əsas məqsədimiz qeyri-neft sənayesini inkişaf etdirmək və qeyri-neft ixracını artırmaqdır. Bildirməliyəm ki, indi dünyada böhranlı vəziyyətdir, demək olar, ölkələr arasındakı iqtisadi əlaqələr müəyyən dərəcədə zədələnib və iqtisadi fəallıq bütün dünyada aşağı düşüb. Buna baxmayaraq, üç ayda Azərbaycanda qeyri-neft sənaye sahəsində artım 23 faizdir. Bunun böyük hissəsi yeni yaradılmış sənaye müəssisələrinin hesabınadır. Beləliklə, biz bu müəssisələri yaratmaqla həm daxili tələbatı ödəyirik, idxaldan asılılığı aradan götürürük, həm də vətəndaşları işlə təmin edirik. Artıq Sumqayıtda minlərlə yeni iş yeri yaradılıb. Son illər ərzində Sumqayıtda bütün sənaye və infrastruktur obyektlərinin açılışlarında mən şəxsən iştirak etmişəm. Son 16 il ərzində bəlkə də 30 dəfəyə yaxın Sumqayıtda olmuşam və şəhərin inkişafı ilə bağlı şəxsən maraqlanıram, bütün məsələləri nəzarətdə saxlayıram.

Bu gün Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye şəhəridir. Vaxtilə Sumqayıt yaradılanda Sovet İttifaqının kimya sənayesinin mərkəzi kimi nəzərdə tutulurdu və bu funksiyanı yerinə yetirirdi. Ancaq sumqayıtlılar yaxşı bilirlər ki, ekoloji vəziyyətə çox böyük zərbə vurulmuşdu. Sumqayıt ekoloji fəlakət zonası idi və Sovet İttifaqı məkanında bəlkə də ekoloji baxımdan ən çirklənmiş şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərlərindən biridir. Çünki burada yaradılmış bütün yeni müəssisələr ekoloji normalara tam cavab verir. Köhnə müəssisələr artıq bağlanıb, onların əraziləri yeni sənaye parklarının sərəncamına verilib. Bu gün Sumqayıtda təmiz hava artıq adi hala çevrilib. Halbuki Sumqayıtda yaşayan insanlar, xüsusilə yaşlı nəsil yaxşı xatırlayır ki, burada ekoloji vəziyyət çox ağır idi. Sumqayıtın yanından maşınla keçənlər də pəncərəni bağlayırdılar ki, o iylər onlara təsir etməsin. Biz şəhərin inkişafına kompleks şəkildə yanaşırıq və sənaye potensialının artırılması bundan sonra da davam edəcək. Ona görə ikinci qaz xəttinin istifadəyə verilməsi həm bu günün tələbatını ödəyir, həm də bundan sonra inşa ediləcək, yaradılacaq müəssisələrin potensialını nəzərdə tutur.

Bizim planlarımız böyükdür. Sumqayıt inkişaf edir, əhali artır, sənaye potensialı möhkəmlənir. Sumqayıt doğrudan da bu bölgənin, regionun çox müasir sənaye şəhərlərindən biridir.

Ardı Səh. 3



# "Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır"



Əvvəli-Səh-2

Eyni zamanda, əlbəttə, şəhərin infrastrukturu yenilənir, şəhər abadlaşır, insanlar üçün gözəl imkanlar yaradılır. Təkcə Sumqayıt Bulvarını qeyd etmək kifayətdir, qısa müddət ərzində gözəl bir istirahət zonası yaradılmışdır. Bu gün Sumqayıt parklar, bağlar şəhəridir. Eyni zamanda, burada məskunlaşmış köçkünlər üçün də yeni layihələr icra edilir. Hazırda burada - yaxınlıqda məcburi köçkünlər üçün yeni şəhərcik salınır və orada üç mindən çox köçkün ailəsi yerləşdiriləcək. Beləliklə, Sumqayıt şəhərinin köçkün problemi böyük dərəcədə öz həllini tapacaq. Bu gün hələ də ağır vəziyyətdə yaşayan köçkünlər bilməlidirlər ki, növbə onlara da çatacaq. Biz hər bir köçkünü yerləşdirəcəyik, onlar üçün ən müasir şərait yaradılır. Baxmayaraq ki, dünya iqtisadiyyatı böhran içindədir, Azərbaycan iqtisadiyyatına da bu, mənfi təsir göstərir. Neftin qiyməti üç dəfə aşağı düşüb. Amma mən demişəm, bir daha demək istəyirəm və bütün vətəndaşlar bunu bilsinlər, biz heç bir sosial layihəni dayandırmayacağıq, heç bir sosial proqramı ixtisar etməyəcəyik. Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün koronavirus dövründə bizim əsas amalımız Azərbaycan xalqını bu bəladan qorumaqdır. Bizim qəbul etdiyimiz qərarlar, atdığımız addımlar həm ölkə əhalisi tərəfindən yüksək qiymətləndirilir, - mənə minlərlə təşəkkür məktubları gəlir, - həm də beynəlxalq təşkilatlar Azərbaycanı bu sahədə nümunəvi ölkə kimi göstərir. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işləri təqdir edir və açıq bəyan edir ki, Azərbaycan nümunəvi ölkədir. Biz dünya miqyasında birinci ölkə olmuşuq ki, koronavirusla mübarizə ilə əlaqədar tərəfdaş ölkələrlə zirvə görüşü keçirdik. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans şəklində zirvə görüşü bizim təşəbbüsümüzlə keçirilmişdir. Koronavirusla mübarizədə Azərbaycan xalqı bir daha gördü ki, sözümüzlə əməlimiz arasında fərq yoxdur. Vətəndaşların sağlamlığı, onların həyatı birinci dərəcəli məsələdir.

Əlbəttə ki, bugünkü tədbirlər, - bu gün mən köçkünlər üçün tikilən şəhərciyə də baş çəkəcəyəm, - göstərir ki, bütün planlarımız yerindədir. Biz bu ili də planlaşdırdığımız kimi başa vuracağıq. Bütün aidiyyəti qurumlara göstərişlər verildi və bundan sonra xərclərimizi prioritet əsasında planlaşdıracağıq. Ancaq sosial məsələlərin həlli daim birinci yerdə olacaqdır.

Biz karantin rejimini nəzərə alaraq, bu günü Sumqayıt şəhərinin məhdud sayda nümayəndələri ilə qeyd edirik. Mən əminəm ki, biz şəhəri bundan sonra da birgə səylərlə inkişaf etdirəcəyik və daha da gözəl şərait yaradacağıq. Sizi və bütün sumqayıtlıları təbrik edirəm.

x x x

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər filialının sədri Tərlan Hacızadə çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident, Sizi sumqayıtlılar adından salamlayıram və "Xoş gəlmisiniz!" deyirəm. Keçən il məhz Sizin Sərəncamınızla Sumqayıtın şəhər statusu almasının 70 illiyi münasibətilə bilirik ki, Sumqayıtın formalaşması və inkişafı məhz Ulu Öndərin adı və dühası ilə bağlıdır. Ulu Öndərin Sumqayıta hər zaman yanaşması fərqli olub. Ulu Öndər Sumqayıtı Azərbaycanın kiçik bir modeli adlandırıb. Bu gün bizi həqiqətən də qürurlandıran hal odur ki, Ulu Öndərin Sumqayıta göstərdiyi diqqət və qayğı məhz Sizin tərəfinizdən bu cür uğurla davam etdirilir. Vurğuladığınız kimi, Sumqayıta göstərdiyiniz xüsusi diqqət və qayğı nəticəsində Sumqayıt bu gün müasir və yeniliklər dolu bir məkana çevrilmişdir. O yeniliklər ki, həqiqətən də dinamik artan inkişaf xətti üzrə gedir. Biz Sumqayıtlılar təbii ki, bununla fəxr edirik.

Sumqayıt bu gün güllər, çiçəklər vurğuladığınız kimi, gecələri işıqlı olan bir şəhərdir. Burada da vurğuladığınız kimi, keçən illər ərzində Sizin iştirakınızla, xeyir-duanızla bir çox sosial inzibati binalar, sənaye müəssisələri inşa olunub bizim ixtiyarımıza verilmişdir. Ancaq bütün bunlarla yanaşı, sumqayıtlıların, Sizin yadınızdadır, bir sıra problemləri də var idi. Bunların sırasında dam örtükləri, lift məsələlərini, küçələrin asfalt örtüklərini xüsusi vurğulamaq olar. Amma məhz Sizin tövsiyə və tapşırığınızla bu gün Sumqayıtın bütün yaşayış binalarının üstü yenidən qurulub və lift, ümumiyyətlə, servis məsələsi ən yüksək haldadır. Şəhərin ən əsas küçələri, məhəllədaxili bütün yollar demək olar ki, yeni asfaltla təmin olunub. Vurğuladığınız kimi, Sumqayıt çox gözəl atmosferi, çox gözəl şəraiti olan bir şəhərdir.

Cənab Prezident, Sumqayıtda inkişafı götürəndə, təchizatı götürəndə, şükür Allaha işıq və su ilə bağlı demək olar ki, heç bir ciddi problem yoxdur. Amma Sumqayıtın qaz təchizatında və xüsusən də qış aylarında qazın təzyiqinin aşağı düşməsində müəyyən qədər problemlər olur. Bu gün Sizin buradakı iştirakınız və xeyir-duanızla, inşallah, Sumqayıtda mən inanıram ki, biz hamımız və bu günü də gözləyirdik ki, bu qaz problemi də öz həllini tapacaq və təkcə Sumqayıtda deyil, ətrafında yerləşən sənaye müəssisələrində də bu qaz təminatı veriləcək.

Cənab Prezident, bu gün şəhərimizdə, sözün əsl mənasında, yeni və sağlam mühit yaradılmışdır ki, məhz bunun nəticəsində potensial bir Sumqayıt ailəsi formalaşıb. Bu gün burada iştirak edən sumqayıtlılar, bizlər bu ailənin üzvü olaraq Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, Azərbaycan xalqının qüruru onun Ali Baş Komandanının, onun Prezidentinin qətiyyəti və mətinliyindədir. Uca Allah qətiyyətli Prezidentimizi və qürurlu Azərbaycan xalqını qorusun!. Sağ olun cənab Prezident!

X X X

Prezident İlham Əliyev: Sumqayıt şəhərinin infrastruktur layihələrinin icrası əlbəttə ki, böyük əhəmiyyət daşıyırdı. Mən bu yaxınlarda elektrik enerjisi ilə bağlı məsələlərə toxunarkən demişdim ki, son 16 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir. Amma onu da bildirməliyəm ki, onlardan birincisi mənim göstərişimlə məhz Sumqayıtda tikilmişdir. Özü də çox böyük stansiyadır - 525 meqavat gücündə. Çünki bu stansiya olmadan Sumqayıtın sənaye potensialı inkişaf edə bilməzdi. Məhz bu stansiyanın istifadəyə verilməsi ilə Sumqayıtın elektrik enerjisinə olan tələbatı və eyni zamanda, ondan sonra artan sənaye müəssisələrinin tələbatı ödənildi.

Su təminatına gəldikdə isə, Sumqayıt Şollar mənbəyindən qidalanır və bu problem də öz həllini tapıb. İndi yolların çəkilişi də nəzərdə tutulur. Bildiyiniz kimi, mənim göstərişimlə Bakı-Sumqayıt yolunun genişləndirilməsi layihəsi icra edilir. Çünki mən demişəm, artıq Sumqayıt Bakı ilə elə bil ki, birləşib və bəziləri burada yaşasa da Bakıda işləyir və əksinə. Ona görə bu yollarda yaranmış tıxaclar əlbəttə ki, ciddi tədbirlər tələb edirdi. İndi yolun genişləndirilməsi işləri gedir. Eyni zamanda, bildiyiniz kimi, biz iki il bundan əvvəl Bakını, Bakı qəsəbələrini Sumqayıtla birləşdirən Bilgəh-Sumqayıt yolunun da açılışını qeyd etdik. İndi Sumqayıtdan Bakının qəsəbələrinə Bakı şəhərinə girmədən dəniz sahili yolu ilə çatmaq mümkündür. Ona görə bütün bu infrastruktur layihələrinin icrası zəruri idi. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməzdi.

Təbii qaz bizim enerji sistemimizin əsas mənbəyidir. Çünki bizim elektrik stansiyalarımızın mütləq əksəriyyəti qazla işləyir. Su elektrik stansiyalarının həcmini artırmaq istəyirik. Alternativ mənbələrdən də istifadə etmək istəyirik. Amma hələlik təbii qaz uzun illər bundan sonra da bizim əsas enerji mənbəyimiz olacaqdır. Ona görə bu gün ölkəmizdə reallaşan böyük qaz layihələri bu məqsədi güdür. "Şahdəniz-2" layihəsinin işə düşməsi və gələn il "Abşeron" yatağından böyük həcmdə təbii qaz hasilatı bizim qaz potensialımızı bundan sonra da təmin edəcək. Çünki ölkəmizdə həm əhalinin sayı artır, həm də sənaye inkişaf edir. Ona görə bu inkişafa adekvat olan enerji mənbəyi olmalıdır. Bu gün müasir texnologiyalar bu sahədə də çox böyük dəyişikliklərə gətirib çıxardı.

Eyni zamanda, şəhərin abadlaşdırılması. Siz lift təsərrüfatını, dam örtüklərini qeyd etdiniz. Bilirsiniz ki, mənim Sərəncamımla Prezidentin ehtiyat fondundan müntəzəm olaraq bu məqsədlər üçün vəsait ayrılır və bildiyimə görə, artıq dam örtüklərinin böyük hissəsi vurulubdur.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov: 1100 binanın dam örtüyü təmir olunub, 190-ı qalıb, o da bu il təmir olunacaq.

Prezident İlham Əliyev: Cəmi 190 bina qalıb, onları da bu il başa çatdıracaqsınız. Lift təsərrüfatını da. Sonra icra hakimiyyətindən müraciət olunmuşdur ki, şəhər nəqliyyatı üçün avtobuslar alınsın, biz bunu da həll etdik. Kredit verildi, müasir avtobuslar gətirildi, indi hamısı işləyir. Ona görə insanları narahat edə biləcək bütün əsas məsələləri biz kompleks şəkildə təhlil edərək öz addımlarımızı atdıq və deyə bilərəm ki, bütün hədəflərə çatmışıq.

Ardı Səh. 4

# “Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır”

**Əvvəli-Səh-3**

Amma əlbəttə, həyat yerində durmur, biz Sumqayıtı daha müasir şəhərə çevirməliyik və əminəm ki, buna nail olacağıq.

X X X

Sumqayıt şəhər 1 nömrəli doğum evinin baş həkimi Təranə Rəcəbli dedi:

-Cənab Prezident, mən də öz növbəmdə, Sizi salamlayıram və qeyd etmək istəyirəm ki, Sizinlə görüşdən böyük sevinc hissi duyuram. Sizin hər səfərinizdə bizim gündən-günə gözəlləşən Sumqayıt şəhəri daha da böyük inkişaf yoluna addım atır və problemləri həll olunur. Cənab Prezident, Sizin yürütdüyünüz siyasətin mərkəzində, hədəfində xalqımız, xalqımızın rifahı, sağlamlığı və əminliyi durur. Biz bunun illərdir şahidiyik. Son aylarda dünyada tüğyan edən COVID-19 qlobal pandemiyası əlbəttə ki, Azərbaycandan da yan keçmədi. Bu dövrdə Sizin atdığınız addımlar, verdiyiniz qərarlar bizə bir xalq kimi bu dövrü çox sabit və rahat keçirtməyə imkan verdi. Bu dövrdə bizim xalqımız az itkilər verib. Buna görə mən Sizə bir vətəndaş kimi, bir ana kimi, bir həkim kimi təşəkkür edirəm.

Cənab Prezident, bu dövrdə artıq bəzi ölkələr bizim təcrübələrimizdən yiyələnirlər. Bu dövrdə Ümumdünya Səhiyyə Təşkilatının, beynəlxalq təşkilatların Sizə təşəkkür etməsi bir vətəndaş kimi məndə böyük fərəh hissi yaradır. Bu dövrdə Sizin məhz iqtisadi sabitliyi deyil, əhalinin sağlamlığını üstün tutmağınız çox təqdirələyiqdir. Siz hər zaman sumqayıtlılara xüsusi diqqət yetirmisiniz. Biz bunu hiss etmişik və daim yanımızda olmusunuz. Sumqayıtın 70 illik yubileyi ərəfəsində Sizin Sumqayıta gəlişiniz və Sumqayıt sakinlərini bu yubiley ərəfəsində medallarla, ordenlərlə təltif etməyiniz biz sumqayıtlıların hədsiz sevincinə səbəb oldu. Fürsətdən istifadə edib demək istəyirəm ki, həmin dövrdə Siz mənə də “Əməkdar həkim” adı verdiniz, buna görə təşəkkür edirəm.

Cənab Prezident, mən Sizi əmin etmək istəyirəm ki, biz Sizin etimadınızı doğruldacağıq. Sizin rəhbərliyinizlə ölkəmiz, dövlətimiz daha böyük inkişaf yolu keçəcək. Bu pandemiya dövründə Sizin verdiyiniz qərarlarla əlbəttə ki, bu qısa müddətdə laboratoriyaların açılması, modul tipli xəstəxanaların tikilməsi və yüksək standartlara uyğun “Yeni klinika”nın açılıb COVID-19 xəstələrinin öhdəsinə verilməsi bu infeksiya ilə bizim mübarizəni gücləndirdi. Bu dövrdə Sizin və Mehriban xanımın həkimlərin yanında olmağınız, bizim sosial rifahımız üçün verdiyiniz qərarlar, əlbəttə ki, nəinki bizim, bütün sakinlərin, aztəminatlı ailələrin, yaşlı nəslin yanında olmağınız bizi bir daha inandırır ki, xalq-hakimiyyət birliyi güclüdür və bu birlik bizi daha gözəl, işıqlı sabahlara çıxaracaq.

Cənab Prezident, Allah Sizi qorusun!. Biz Sizə cansağlığı arzu edirik. Sizə və ailənizə Ulu Tanrıdan uzun və xoşbəxt ömür arzu edirik. Çox sağ olun.

X X X

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Xahiş edirəm, mənim salamlarımı Sumqayıt həkimlərinə çatdırasınız. Mən artıq dəfələrlə demişəm ki, həkimlərin fədakarlığı qürur hissi yaradır. Bütün Azərbaycan xalqı bir daha gördü ki, bizim həkimlərimiz öz həyatlarını, öz sağlamlıqlarını risk altına ataraq xəstələrin yanındadırlar, gecə-gündüz, fasiləsiz xəstələrə qulluq edirlər. Mən demişəm, hətta o geyimdə belə hərəkət etmək çətindir. Onlar isə ayaqüstə, gecə-gündüz xəstələrin yanındadırlar. Xəstələrin sağalmasında həkimlərin çox böyük rolu var. Əlbəttə ki, görülmüş bütün tədbirlər və sizin də qeyd etdiyiniz kimi, müasir klinikaların koronavirus xəstələrinin sərəncamına verilməsi, təşkilati düzgün işlərin qurulması və qabaqlayıcı tədbirlər bizi demək olar, bu böyük bəladan qorudu. Düzdür, itkilər də var, ancaq itkilər daha da çox ola bilərdi. Ona görə bütün qabaqlayıcı tədbirlərin görülməsi, indi həyat göstərir ki, düzgün addım idi.

Əlbəttə, mən həkimlərin fəaliyyətini bir daha qeyd etmək istəyirəm. Bildiyiniz kimi, artıq bir neçə şüar da əhali arasında çox təqdir edilir: “Biz birlikdə güclüyük!” və “Azərbaycan həkimlərinə eşq olsun!”. Biz ölkəmizin müasir rəmzlərindən biri olan “Alov qüllələri”ndə də bütün həkimlərimizi alqışlamışıq. Bir məsələyə də toxunmaq istəyirəm. Bəzi hallarda Azərbaycan səhiyyə sisteminə müəyyən tənqidi yanaşmalar da müşahidə olunurdu. Hətta deyirdilər ki, xəstələr xaricə üz tutur, xaricdə müalicə almaq istəyirlər. Mən demişəm, indi bir çox ölkələrdə imkanlı adamlar istəyirlər dünyanın ən inkişaf etmiş ölkələrinin xəstəxanalarına müraciət etsinlər. Ancaq bu gün nəyi görürük? Onu görürük ki, səhiyyə xidməti, tibb xidməti baxımından biz heç kimdən geri deyilik. Bu gün inkişaf etmiş ölkələrin səhiyyə sistemləri böhran içindədir, xəstələrə qulluq edə bilmirlər. “COVID-19” xəstəliyinə düçar olmuş, amma vəziyyəti ağır olmayan insanlara nəinki tövsiyə edilir, göstəriş verilir ki, evdə otur. Onları xəstəxanalara götürmürlər, ən inkişaf etmiş ölkələrin xəstəxanalarında xəstələri dəhlizlərdə yerə uzadırlar. Ən inkişaf etmiş ölkələrdə artıq neçə gündür ki, yüzlərlə insan vəfat edir, yüzlərlə. Özü də elə ölkələr var ki, o ölkələrin əhalisi Azərbaycanın əhalisi ilə demək olar ki, təxminən eynidir. Yüzlərlə - 200, 300, 400 insanın vəfat etməsi onu göstərir ki, o ölkələrin səhiyyə sistemi buna hazır deyil, bu yükü götürə bilmədi və faktiki olaraq çökdü.

Bu gün koronavirusla bağlı əsas problem odur ki, xəstəliyin geniş yayılması o ölkələrin mövcud olan səhiyyə potensialından daha genişhəcmlidir. Ona görə bizim əsas vəzifəmiz ondan ibarət idi ki, xəstəliyin geniş yayılmasına imkan verməyək. Biz bilirdik ki, bu xəstəlik bizə xaricdən gəlib. Artıq daxildə yoluxma prosesi başlayanda bilirdik ki, bu yoluxma prosesinin qabağını almaq tam mümkün olmayacaq. Amma məhdudlaşdırmaq, xəstələnmə zəncirini qırmaq, vaxt udmaq, bu vaxtdan istifadə edərək bütün bizim tibb sahəsini təşkilatlandırmaq, maska, dezinfeksiya vasitələri müəssisələrini işə salmaq üçün bizə vaxt lazım idi. Eyni zamanda, mənim göstərişimlə bizim ən qabaqcıl xəstəxanalarda koronavirus xəstələri yerləşdirildi, o cümlədən “Yeni klinika”da, Azərbaycan Tibb Universitetinin iki klinikasında və bu gün xəstələr 20-dən çox klinikada müalicə alırlar. Artıq bir həftədir ki, biz müsbət dinamikanı görürük. Nədədir bu dinamika? Yəni, yoluxanların sayı sağalanların sayından azdır. Əsas budur. Artıq bu məhdudlaşdırıcı tədbirlərin nəticəsini biz görürük. Geniş sosial paket təqdim olundu. Birinci mərhələdə hesab edirdik ki, biz 1 milyard manatla işləri tənzimləyə bilərik. Gördük ki, bu, azdır. Bunu qaldırdıq 2,5 milyard manata. İndi isə bütün proqramları, o cümlədən vergi güzəştləri və digər güzəştləri nəzərə alaraq bu, artıq 3,5 milyarddan böyük rəqəmə çıxır və nə qədər lazımdır bunu edəcəyik. Çünki insanların günahı yoxdur. Bəziləri indi qeyri-formal işləyirdi. Halbuki mən dəfələrlə demişəm ki, öz işinizi sənədləşdirin. Amma onlar da işləyirdi, evə pul gətirirdi. İndi onlar da işsiz qalıb. Ona görə bizim qəbul etdiyimiz qərarlar onları - heç bir əmək müqaviləsi olmayan insanları da nəzərə alır. Çünki biz başa düşürük ki, onlar öz işlərindən məhrum olublar. İndi dinamika müsbət istiqamətdə gedir. Əlbəttə, növbəti qərarların qəbul edilməsində biz mütəxəssislərin rəyinə əsaslanacağıq. Çünki burada özbaşınalığa yol vermək olmaz, hansısa bir ayrı qərara getmək olmaz. Gərək mütəxəssislər desinlər ki, bu məhdudlaşdırıcı tədbirləri biz nə vaxt müəyyən dərəcədə yumşalda bilərik. Bu bir həftənin təcrübəsi göstərir ki, o gün uzaqda deyil. Müəyyən addımlar ola bilsin ki, mayın 4-nə qədər də atıla bilər. Çünki bilirsiniz, karantin rejiminin müddəti mayın 4-nə qədər uzadıldı. İndi baxarıq, əgər imkan olarsa, artıq müəyyən yumşalma addımları atılacaq. Ancaq yenə də daim monitorinq aparılacaq. Əgər bu yumşalmadan sonra görsək ki, vəziyyət mənfi istiqamətə gedir, məcbur olub yenə də sərtləşdirəcəyik. Ona görə bir daha demək istəyirəm ki, əsas məsələ vətəndaşların sağlamlığıdır, onların həyatıdır. Hər kəs üçün çətindir. İndi biz bu vəziyyətlə üzləşərkən hesab edirəm ki, ən düzgün yolu seçmişik. Xalqımız ən yüksək xüsusiyyətlərini göstərir - həmrəylik, birlik. Mən demişəm ki, buna məsuliyyət də əlavə olunmalıdır. İlk günlərdən fərqli olaraq məsuliyyət də, nizam-intizam da artıb. Bu vəziyyətdə insanların sağlamlığını qoruyan həkimlər və karantin rejiminə nəzarət edən polis işçiləri ən yüksək qiymətə layiqdirlər. Mən heç şübhə etmirəm ki, biz bu vəziyyətdən az itkilərlə çıxacağıq, İnşallah! Sağ olun.



X X X

Bu gün dünyada koronavirus pandemiyasının bir çox ölkələrin iqtisadiyyatına ciddi ziyan vurması, neftin qiymətinin kəskin aşağı düşməsi fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sosial layihələr uğurla və ardıcıl şəkildə davam etdirilir. Bu fakt bir daha sübut edir ki, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, əhalinin sosial məsələlərinin həlli, sosial infrastrukturun daha da müasirləşdirilməsi dayanır. İndiyədək bu istiqamətdə icra olunan layihələr arasında ölkə ərazisinin qazlaşdırılması, əhalinin “mavi yanacağ”a tələbatının ödənilməsi məqsədilə həyata keçirilən işlərin də xüsusi yeri var. Onu da deyək ki, bu layihənin nəticəsində təbii qaz Yaşma və Sumqayıt elektrik stansiyalarına, həmçinin SOCAR-ın Karbamid zavoduna və yeni Metallurgiya Kompleksinə nəql ediləcək. Bu kəmərin istifadəyə verilməsi yalnız Sumqayıt-Yaşma iqtisadi regionu üçün deyil, həm də iki lokal nəql sistemini birləşdirməklə Bakı şəhərinin etibarlı qaz təchizatı üçün alternativ bir sistemə çevrilməsinə imkan verir. Qeyd edək ki, layihənin icrası zamanı istifadə olunan borular da yerli istehsaldır.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Dövlət Tənzimləmə Xidməti arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Sosial Tədqiqatlar Mərkəzinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb. Trend-in məlumatına görə, sənədə əsasən, Sosial Tədqiqatlar Mərkəzinin ilkin nizamnamə fondu 100 000 (bir yüz min) manatdan 1 280 338 (bir milyon iki yüz səksən min üç yüz otuz səkkiz) min manata qaldırılıb.

* * *

Prezident İlham Əliyev Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə sisteminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Prezident İlham Əliyev 3042 məcburi köçkün ailəsi üçün yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olub





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Sumqayıt şəhərindəki yataqxanalarda müvəqqəti məskunlaşan 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verərək dedi:***

-Möhtərəm cənab Prezident, bu Sizin tapşırıqlarınıza əsasən Neft Fondundan ayrılmış vəsait hesabına Abşeron rayonunun ərazisində 1890 ailə üçün nəzərdə tutulmuş tikinti sahəsidir. Hazırda burada iki qəsəbə salınır. Qəsəbələrdən biri 1890 ailə, digəri isə 1152 ailə üçün nəzərdə tutulur. Birinci qəsəbəmizdə 1512 şagird yerlik məktəbimiz, 280 yerlik uşaq bağçamız, klub icma mərkəzimiz var və musiqi məktəbi tikilir. Digər qəsəbədə doqquzmərtəbəli 29 yaşayış binası tikilir. Bu qəsəbədə isə 35 yaşayış binası nəzərdə tutulub, hazırda tikintisi davam etdirilir. Cari ilin yanvar ayının 15-dən tikintisinə başlanılıbdır, 2200 işçi qüvvəsi cəlb olunub, müasir texnikadan istifadə edilir. Tikinti şərtləri nəzərə alınmaqla işimizi sürətlə davam etdiririk və nəzərdə tutmuşuq ki, noyabr ayının sonlarına bu qəsəbə tam hazır olacaq.

Prezident İlham Əliyev: Hər iki layihə?

Rövşən Rzayev: Bəli, hər iki layihə, elə nəzərdə tutulub. Hazırda da işlərimiz sürətlə gedir.

Prezident İlham Əliyev: Yəni, ümumiyyətlə, 3 mindən çox ailə burada yerləşəcək.

Rövşən Rzayev: Bəli, 3 min 42 ailə burada məskunlaşacaqdır. Əsasən Sumqayıt şəhərindən köçürüləcək məcburi köçkünlər. Sumqayıt şəhərində 13 mindən çox ailə məskunlaşıbdır. Hörmətli Birinci vitse-prezident Mehriban xanımın tapşırığına əsasən Sumqayıt şəhəri üçün yol xəritəsi hazırlanıbdır. Sumqayıt şəhərində inzibati binalarda çətin vəziyyətdə məskunlaşan köçkünlərimizin sayı 3 mindən bir az çoxdur. Onları və Abşeron rayonunda inzibati binalarda çətin vəziyyətdə yaşayan 1500-dən çox insanı biz burada məskunlaşdıracağıq.

Prezident İlham Əliyev: Çox yaxşı, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan insanları yerləşdirin, onların böyük hissəsi burada yerləşdiriləcək. Ondan sonra bu layihələr davam etdiriləcək.

Rövşən Rzayev: Möhtərəm cənab Prezident, Sizin tapşırıqlarınıza əsasən, burada komitə üçün ümumiyyətlə 50 hektar ərazi ayrılmışdır. Onun 17 hektarından istifadə olunubdur. İlk qəsəbəmizdə 1001 ailə yaşayır. Siz 2018-ci ilin dekabrında bu qəsəbənin açılışını etmisiniz. Hazırda ikinci və üçüncü qəsəbələrimiz tikilir, daha 12 hektar ərazimiz qalır. Orada da layihəyə uyğun olaraq 1008 ailə yerləşdirə biləcəyik. Sizin tapşırıqlarınıza uyğun olaraq, layihə tamamilə dəyişdirilibdir, nəzərdə tutulmuş 2500 ailə əvəzinə hazırda burada 5000-ə yaxın ailə məskunlaşdırılacaq.

Prezident İlham Əliyev: Çox yaxşı, biz bu əraziləri gərək elə planlaşdıraq ki, maksimum səmərə ilə binalar tikilsin, həm mərtəbə səviyyəsi, eyni zamanda, burada ictimai zonaların həcmi şəhərsalma qaydalarına uyğun olmalıdır. Əlbəttə ki, hər bir qəsəbədə məktəb, uşaq bağçası, tibb məntəqəsi, alış-veriş yerləri olmalıdır. Bu vaxta qədər bu qəsəbə də tikilib.

Rövşən Rzayev: Bəli, burada 1001 ailə yaşayır, binalar yeddi mərtəbədən ibarətdir, qəsəbə 17 hektarda salınıbdır. Amma Sizin tapşırıqlarınızdan sonra layihəyə yenidən baxıldı və artıq yeni qəsəbələrdə doqquzmərtəbəli binalar tikilir.

Prezident İlham Əliyev: Ümumiyyətlə, bu qəsəbələrdə əvvəlki dövrdə tikilmiş binaları da nəzərə alsaq təqribən dörd mindən çox ailə məskunlaşacaq. Mən göstəriş vermişəm ki, bütün kommunikasiyalar da təmin edilsin - qaz, işıq, yollar, su təminatı - bütün şərait.

Rövşən Rzayev: Yaşıllıq salınır.

Prezident İlham Əliyev: Yaşıllıq, ictimai zonalar. Çox yaxşı, gələn ilə də planlaşdırın, çünki hələ ki, Sumqayıt şəhərində və Abşeron rayonunda məcburi köçkünlərin sayı çoxdur. Son illərdə biz onların əhəmiyyətli hissəsini yerləşdirdik. Ona görə burada bu tikinti layihələri davam etdirilməlidir. O cümlədən Bakı şəhərində və bütün digər yerlərdə. Bu bina məktəb üçündür?

Rövşən Rzayev: Bəli, məktəbdir, 3 korpusdan ibarətdir, cənab Prezident.

Prezident İlham Əliyev: Hər iki qəsəbə üçün nəzərdə tutulub?

Rövşən Rzayev: Bəli, hər iki qəsəbə üçün nəzərdə tutulubdur. Şagirdlər sayılıb, hamısı yerləşəcəkdir. Bunların hamısının layihəsi şəhərsalma qaydalarına uyğun hazırlanıb.

Prezident İlham Əliyev: Bu binalar neçə mərtəbəlidir?

Rövşən Rzayev: Yeddimərtəbəlidir. İndi isə doqquzmərtəbəli binalar tikilir.

Prezident İlham Əliyev: Gələcəkdə 12 mərtəbəli binalar da tikilə bilər ki, daha çox insanları yerləşdirək.

Rövşən Rzayev: Baş üstə. Sizin tapşırığınızla Binəqədi rayonunda bizə yer ayrılıbdır. Sizin tapşırığınızdan sonra biz orada 12 mərtəbəli binaların inşasını nəzərdə tuturuq.

Prezident İlham Əliyev: Çox yaxşı.

X X X

Qeyd edək ki, indiyədək Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində məcburi köçkünlərin mənzil-məişət və sosial problemlərinin həlli istiqamətində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə dövlətin həyata keçirdiyi siyasətə Heydər Əliyev Fondu da böyük töhfələr verib. Bu günədək 62494 məcburi köçkün ailəsinin, ümumilikdə, bu qəbildən olan 315 min soydaşımızın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 2020-ci ildə də bu işlərin davam etdirilməsi nəzərdə tutulur. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə reallaşdırılan tədbirlər ardıcıl xarakter alıb.







# Mir Cəlal Paşayevin anadan olmasından 112 il ötür

***Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan və elmin, ədəbiyyatın, təhsilin inkişafında misilsiz xidmətlər göstərmiş xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 26 aprel tarixi doğum günüdür. Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Mir Cəlal əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmişdir.***




Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Təbriz şəhəri yazınlığındakı Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır.

Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. "Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir, deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: "Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir...".

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük vətən müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

Böyük Vətən müharibəsi Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürülmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: "Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.

Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir, O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də Onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

***Zümrüd Bayramova***

# İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar 7600 nəfərə birdəfəlik yardım veriləcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti təzahürüdür. Sərəncamda İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 1500 manat məbləğində birdəfəlik maddi yardım verilməsi tapşırılır.***



Sənədə əsasən, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sərəncam ümumilikdə 7600 nəfərə şamil olunacaq. Onlardan 264-ü İkinci Dünya müharibəsində iştirakçısı, qalanı İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş və sənəddə nəzərdə tutulan digər müvafiq şəxslərdir.

Sərəncamla birdəfəlik maddi yardımların ödənilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon manat ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sərəncamın yüksək səviyyədə icrası təmin edilməklə, birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək. İkinci Dünya müharibəsi iştirakçılarına və digər şəxslərə hər il Qələbə günü ərəfəsində verilən birdəfəlik maddi yardımın məbləği də mütəmadi artırılır. Bu istiqamətdə növbəti artım kimi, ötən illə müqayisədə hazırda həmin şəxslər üçün nəzərdə tutulan birdəfəlik yardımın məbləği də 50 faiz artırılıb.

# Mücadilə davam edir

***2019-cu ilin dekabrında Çinin Hubey vilayətinin Uhan şəhərindən başlayan və heç kəsin ağlına belə gəlmədiyi sürətlə bütün dünyanı bürüyən, zülmətin, qaranlığın rəmzlərindən biri olan, yarısı siçan, yarısı quşa bənzər bədheybət yarasa mənşəəli, mutasiya edən, indi "COVİD-19" adlanan koronovirus kabusu bütün planeti sürətlə dolaşmaqdadır. Bu gün bu Taclı ölüm mələyinin aldığı canların sayı yüz minlərlədir. Dünyanın bütün nöqtələrində hər gün minlərlə can almaqda davam edir bu Mələk. Bəlkə də səmavi kitablarda alın yazısı deyilən anlam doğrudur. Əgər doğrudursa, deməli yüz minlərlə insanın alnina eyni yazı yazılıbmış.***



**Ramiz Göyüşov**
**YAP Binəqədi rayon təşkilatının sədri**

Tarixin müxtəlif dövrlərində, dünyanın müxtəlif guşələrində, məkanlarında, müxtəlif epidemiyalar-taun, xolera, yatalaq, vəba, quş qripi, donuz qripi, SARS. MERS kimi epidemiyalar olmuşdu və bu epidemiyalar zamanı bəşəriyyət çoxsaylı qurbanlar vermişdir. Lakin Tanrı bu bəlalarin heç birinə həm miqyasına, həm coğrafiyasına, həm təhlükəsinə görə heç zaman COVİD19 adlanan ölüm mələyinə verdiyi qədər hökm verməmişdi. Yer üzünə bəşər tarixində belə bir misli görünməmiş bəla gəlməmişdi.

Bu virusun yaranması ilə əlaqədar cox müxtəlif versiyalar var. Kimi deyir ki təkamül nəticəsində təbiət yaradıb bu virusu. Kimi də deyir ki, bu fövqəl bəlanı insan yaradıb. Və buna təkzibolunmaz faktlar da gətirilir. COVİD19 pandemiyasına qədər bu virus haqında son onillikdə çoxsaylı yazılar, məqalələr, elmi araşdırmalar yazılıb, filmlər çəkilib. Ancaq bu yazı və filmlərin heç birində bu bəlanın miqyası və coğrafiyası, həm də fəsadları bu qədər miqyaslı təsvir edilməmişdir.

Ötən ilin dekabrında virus haqqında ilk məlumatlar yayılanda, ABŞ bu virusun Çin tərəfindən hzırlandığını elan etdi. ABŞ prezidenti Çinin adı ilə adlandırdı bu virusu. Hətta ABŞ bu vrusu hazırlayaraq Çinə satan virusoloq barədə cinayət işi qaldıraraq onu həbs də etmişdi. Çin tərəfi isə bu fəlakətdə Amerikanı günahlandırmaqda davam edir. Bəlkə fövqəldövlətlər arasında növbəti bir dünya müharibəsinin başlanğıcıdır bu savaş?

....Sən demə yaşadığımız Yer kürəsi -bizim qalaktikanın Günəş sisteminin Yer adlanan planeti bizim təsəvvür etiyimizdən çox kiçik imiş, bu dünya yumruq boydaymış. Bir zamanlar ucu-bucağı, az qala sonsuzluq qədər təsəvvür edilən, səyyahların dəmir çarıq geyib sonuna çatmadığı, bu böyük dünya, sən demə çox balaca imiş, Yer kürəsinin səthini tamamilə örtmək üçün gözə görünməz taclı virusa cəmi 1-2 ay lazım imiş.

Bu yeni virusun qarşısında heç bir manea tab gətirə bilmir. Bu Taclı mələyin öhdəsindən təbiət qüvvələri- yağış, leysan, qar-boran, şaxta-sazaq, od-ataş, ildırımşimşək aciz qalıb. Dünyanın fövqəl dövlətləri hərə öz ölkəsində müxtəlif qadağalar tətbiq edib. Sərhədlər bağlanıb, uçuşlar dayandırılıb, qatarların, gəmilərin, avtobusların hərəkəti dayandırılıb. Dünyanın ən məşhur turizm mərkəzləri, öz gözəlliyi ilə bəşəriyyəti heyran qoyan şəhərlər, küçələr, muzeylər boş qalıb. İnsanlar bir vahimə içindədir. Bəlkə də bəşər tarixində ilk dəfədir ki, insan təbiət qarşısında geri çəkilir, öz acizliyini, gücsüzlüyünü etiraf edir. Dünyanın ən füsünkar guşələri, təbiətin yaratdığı və insan əlinin hələlik toxuna bilmədiyi əsrarəngiz mənzərələr insansız qalıb. Bəşəriyyətin min illər bundan öncə yaratdığı tarixi abidələrinin yerləşdiyi turizm mərkəzləri, şəhərlər, çaylar, göllər, dənizlər, dağlar, meşələr insan ayağına, elə insan da bu yerlərə həsrət qalıb. Yox həsrət qalmayıb həsrət qoyub bu taclı virus. Hər şey insansız miskin, gərəksiz, mənasız görünür.

Bu "mələk" nə var tanıyır, nə dövlət, nə böyük tanıyır, nə kiçik, nə vəzifə tanıyır, nə də mənsəb. Bu mələyin qarşısında hamı bərabərdir. Heç kəs sığorta olunmayıb bu bəladan.

Bu gün təbii virusdan daha çox siyasi virus kimi, danışılan "COVİD-19" mənşəyinin və onun yaradılmasında məqsədin nədən ibarət olduğu az-çox zaman keçəcək və aydın olacaq. Lakin fakt-fakt olaraq qalamaqdadır. Bütün bəşəriyyət bu virusla dünya müharibəsi vəziyyətindədir.

Böyük Yaradanın yaratdıqlarının ən alisi hesab edilən insan da bu bəlanın qarşısında aciz qalıb.

Hələlik sürətlə bütün dünyanı cənginə alan bu kabusun qarşısının alınmasının yegane yolu TƏCRİDDİR. Nə qədər çətin olsa da insanların biri-birindən, doğmalarının, dostlarının, əzizlərin bir-birindən təcridi. Bu gün dünyanın 215 ölkəsini bürümüş bu dəhşətli, təhlükəli virusdan qorunmağın bir şüarı var. "EVDƏ QAL". Dinindən, dilindən, irqindən, cinsindən, vətəndaşlığından aslı olmayaraq dünyada nə qədər dil varsa, o dillərin hamısında səslənir bu şüar:"Evdə qal". Dünyanın ən məşhur söz adamları şairlər, yazıçılar, bəstəkarlar, müğənnilər, rəssamlar, heykəltəraşlar öz əsərlərində ifadə edir bu şüarı "Evdə qal". "Evdə qal"a musiqilər, mahnılar yazılır, layihlər hazırlanır. Hər kəs öz bacardığı qədər, öz isedadı imkan verdiyi qədər bu şüara dəstək verir. Təki o, musiqilər, mahnılar, o, əsərlər insanlara təsir etsin, insanlar o şüarı eşitsin. Və həm də təkcə eşitməsin həm də əməl etsin. Bəlkə onda bəşəriyyəti xilas edək. İndiyədək bəşər tarixində elə bir şüar olmayıb ki, dünyanın 5 mindən çox dilndə danışan, dünyanın 7,7 mlrd əhalisi bu şüarı bilməsin.

Bəli hələlik yegane nicat yolu budur. Hər kəs öz yuvasına, ən təhlükəsiz, ən rahat, ən təmiz yuvasına-evinə çəkilməlidir. Hələlik evdə qalmalıyıq. Bir dostum "evdə qal"la bağlı fikirlərini bölüşəndə yazmışdı:" Gəlin bircə anlıq fiziki hərəkət etmək iqtidarında olmayan, ömrü boyu evdə qalmağa məhkum olunmuş insanları xəyalımıza gətirək". Heyrətamiz misal deyilmi?

Təhlükəli düşmən bizdən cəmi iki metr aralıda dayanıb, nəfəs məsafəsi qədər aralı. Biz hər kəsdən iki metr aralı dayanmalıyıq, bunu hamıya təlqin etməliyik.

Koronavirus, COVİD 19 adlanan bu taclı mələk təkcə canlar alır, dünya iqtisadiyyatını da çökdürməkdədir. Bütün dünyada iqtisadiyyatın əsas göstəticisi olan neftin qiyməti, neft bazarının bütün tarixində belə aşağı düşməyib və bu gün nefti alana hətta üstündə dollar da verirlər ki, öz bazarlarını itirməsinlər.

Dünyada hökmranlıq uğrunda amansız bir savaş gedir, bu taclı mələk kimin tərəfində olacaq. Bunu hələlik heç kəs bilmir. Bəlkə bu mübarizə dünyada nəhayət uzun illər davam edən birqütblülüyün hökmranlığına son qoyacaq. Bəlkə İngiltərə ilə yarpaq tökümü başlayan Avropa Birliyinin də sonunu yaxınalaşdıracaq. Əgər belə deyilsə həmişə dünyaya meydan oxuyan, öz sarsılmaz birliyi ilə bütün dünyaya nümunə olmağı nümayiş etdirən Avropa birliyinin dövlətləri bir biri ilə niyə bircə anda sərhədlərini bağladı Bu idimi onların sarsılmaz ittifaqı?

Bu müharibə Azərbaycanımızdan da yan keçməyib. Çağrılmamış, gözlənilməz, arzuolunmaz və gözəgörünməz qonaq bizim də qapımızı döydü. Prezident İlham Əliyevin tapşırığı əsasında virusun təhlükəsini azaltmaq və maksimum dərəcədə qarşısını almaq məqsədilə verdiyi tapşırıqların icrası nəticəsində Azərbaycanda mövcud vəziyyət digər dünya və qonşu ölkələrlə müqayisədə şükürlər olsun ki, çox yaxşıdır.

Bütün dünyada olduğu kimi, bizim ölkəmiz də gözəgörünməz düşmənlə müharibə vəziyyətindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında Baş nazirin sədrliyi ilə yaradılmış Operativ Qərargah Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyələrinə uyğun olaraq ləngimədən bütün zəruri tədbirlər görür. Respublikamızda "COVİD-19" - la mübarizə üçün hər cür şərait, tibbi personal, zəruri avadanlıqlar, digər ləvazimat və mümkün dərman vastələri mövcuddur və kifayət qədərdir. Lakin bunula belə məkirli düşmənlə mübarizə aparmaq üçün hər bir ölkə vətəndaşı bu mübarizəyə qoşulmalıdır. Mübarizənin də başlıca şərti ondan ibarətdir ki, heç kəs panikaya uymamalı, hər kəs özünü qorumalı maksimum dərəcədə ünsiyyətdən kənar durmalı, hər kəslə iki metr məsafə saxlamalıdır, şəxsi gigiyena və fərdi qoruyucu vasitələrdən istifadə etməli, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyyə və tapşırıqlarına ciddi əməl etməlidir. Belə olduqda minimum itkilərlə düşmənə qalib gəlmiş olacağıq.

Koronavirus pandemiyası dövründə yaddaşımıza həkk olunası bir məqamı xüsusil qeyd etmək istəyirəm. Pandemiya elan olan vaxtda dünyanın ən inkişaf etmiş, ən təhlükəsiz, ən gözəl dövlətləri hesab edilən ABŞ, Fransa, Almaniya, İngiltərə, İtaliya, İspaniya, Danimarka, Niderland, Belçika, Çexiya və s. ölkələrdə bu və ya digər səbəbdən yaşayan, işləyən, bu ölkələrdə təhsil alan soydaşlarımızın böyük əksəriyyəti öz həyatlarını həmin ölkənin hökumətlərinə, xidmətlərinə etibar etməyib vətənimizə döndülər. Ölkə Prezidenti Cənab İlham Əliyevin tapşırığına uyğun olaraq minlərlə vətəndaşının olkəyə gətirilməsi təmin edildi. Bütün bunlar səbəbsiz deyildi:

**1.** Ölkə xaricində yaşayan soydaşlarımızın Azərbaycandakı doğmaları elə ilk günlərdəcə həmin ölkədən vəziyyətləri Azərbaycanla müqayisə edərək, əmin oldular ki, bizim Prezidentimizin və hökumətimizin gördüyü tədbirlər daha etibarlıdır. Burda pandemiyanın qarşısının alınması üçün görülən tədbirlər zaman etibarı ilə vaxtında görülmüş eyni zamanda və mükəmməl təşkil edilib.

**2.** Pandemiyanın tüğyan etdiyi zamanda bütün məsələlərlə bağlı Azərbaycanda yaşamaq daha təhlükəsiz, daha etibarlı, daha rahatdır, bütün həyat əhəmiyyətli mallara, xidmətlərə əlçatanlıq təmin edilmişdir.

**3.** Vətəndaşların Pandemiya dövründə zəruri məsələlərlə əlaqədar hərəkəti üçün mükəmməl icazə sistemi təşkil edilib, əhalinin təhlükəsiz və rahat hərəkəti üçün hər cür şərait yaradılıb.

**4.** Əhalinin sosial müdafiəsi, aztəminatlı ailələrin, işsizlərin, karantinlə əlaqədar fəlaiyyəti qadağan edilən sahibkalara dəymiş ziyanın üdənilməsi və digər ziyan cəkən fiziki və hüquqi şəxsəlrin pandemiya dövründə problemlərinin həlli üçün dövlət tərəfindən geniş spektirli kompleks tədbirlər görülür.

**5.** Ölkədə müxtəlif xeyriyyəçi təşkilatların, insanların, sahibkarların müxtəlif xeyriyyə aksiyaları getdikcə daha kütləvi xarakter alır. İnsanlar vəziyyəti ağır olan qohumlarına, qonşularına, ehtiyacı olanlara yardımları getdikcə genişlənir.

"Biz birlikdə güclüyük".

**6.** "ASAN", "Regionların inkişafı" İctimai Birliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Yeni Azərbaycan Partiyasının könüllülərinin yaşı 65-dən yuxarı olan tənha-ahıl vətəndaşlara göstərdiyi yardım və xidmətlər vüsət alır.

Və bir də qədim bir bayatıda deyildiyi kimi "Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı". Vətən çəkib gətirib bu insanları.

Bu günlər hər bir Azərbaycan vətəndaşının yanında, başının üstündə olan, onu hər bəladan hifz edən, hər problemini həll edən dövləti var.

"İnsanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür deyən" İlham Əliyev kimi ağıllı, müdrik, güclü, iradəli, qətiyyətli, müstəqil siyasət yürüdən dövlət başçısı var.

Bəşər tarixi sübut etmişdir ki, bütün zamanlarda insanın idrakı, zəkası və iradəsi bütün savaşlardan onu qalib çıxarıb. Bu dəfə də belə olacaq. Bir az da keçəcək, insanlıq bu müharibədən də qalib çıxacar. Lakn indi hər kəs bir az dözüm, bir az təmkin, bir az səbr, bir az iradə,bir az da nizam-intizam nümayiş etdirməlidir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanımın dediyi kimi: "Bizim hər birimiz dövlət tərəfindən görülən tədbirlərin vacibliyini birmənalı olaraq dərk etməli və maksimum dərəcədə vətəndaş məsuliyyəti nümayiş etdirməliyik. Məhz bu cür, bir-birimizi qayğı ilə dəstəkləyərək, dözüm və anlayış göstərək biz taleyin bizi üzləşdirdiyi bu qorxunc sınaqdan üzüağ çıxıb koronavirus üzərində qələbədən sonrakı həyat üçün bir-birimizi qoruya bilərik. Bu qələbə mütləq baş tutacaq! Mən bu qələbəyə inanıram"!

# "Siz Azərbaycanı yaşadır, inkişaf etdirirsiniz"



Azərbaycan Prezidenti İlham Əliyevin koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması, xalqımızın sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması ilə bağlı atdığı qətiyyətli addımlar vətəndaşlarımız tərəfindən böyük razılıqla qarşılanır

Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, xalqımızın sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması istiqamətində atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir. Yasamal rayon sakini 4 qat dünya, 4 qat Avropa çempionu Cəfərov Zaur dövlətimizin başçısına minnətdarlıq edərək yazır:

Möhtərəm cənab Prezident.

Sizə nə qədər təşəkkür etsək, nə qədər öz dərin minnətdarlığımızı bildirsək azdir. Siz hər zaman Azərbaycan xalqının yanında olmusunuz və daim ölkə vətəndaşlarının sosial rifahının yüksəlməsinə xidmət edən siyasət irəli sürmüsünüz. Vətəndaşların sağlamlığı Sizin üçün hər şeydən önəmlidir. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Koronovirusla Mübarizəyə Dəstək Fonduna ayrılan maddi vəsait, Sumqayit Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışı, Bakı-Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülən işlər, telekanallarda izlədiyimiz çıxışlarınız, açılışlarında şəxsən iştirak etdiyiniz səhiyyə ocaqları, bu və digər tədbirlərin həyata keçirilməsi bir daha sübut edir ki, Siz Azərbaycanı yaşadır, inkişaf etdirirsiniz.

Siz hər bir azərbaycanlının Prezidentisiniz. Mən bir vətəndaş və Azərbaycanın idman şərəfini daim ləyaqətlə təmsil edən idmançı olaraq Sizə öz dərin minnətdarlığımı bildirirəm. Cənab Prezident, Sizinlə fəxr edirik. Allah Sizi və ailənizi qorusun.

Kəlbəcər rayonundan məcburi köçkün, Mingəçevir şəhər sakini Xanlarov Emil yazır:

Hörmətli cənab Prezident.

Mingəçevir şəhərində məskunlaşmış kəlbəcərli məcburi köçkünlər olaraq Sizin diqqət və qayğınız sayəsində bizlərə verilən təmirli və müasir avadanlıqla təchiz olunmuş mənzillərdə yaşayırıq. Sizə ailəmiz adından təşəkkür etməyi və minnətdarlığımızı bildirməyi özümə borc hesab edirəm.

Məlum olduğu kimi, dünyanı cənginə almış koronavirus (COVID-19) pandemiyası bizdən də yan keçməyib. Bu çətin dönəmə baxmayaraq, Sizin müdrik, operativ və düşünülmüş qərarlarınız həmişə olduğu kimi, yenə də neçə-neçə ailənin rahat və təhlükəsiz şəraitdə öz evində qalmasına, onların sosial təminatlarının ödənilməsinə şərait yaradıb.

Sizin liderliyiniz məhz xalqa illər boyu yorulmadan göstərdiyiniz xidmətləriniz sayəsində formalaşıb. Sizin siyasətinizin prioritetini bir tərəfdən vətəndaş amili, digər tərəfdən dünya hüdudlarından kənarda Azərbaycan adını ucaltmaq təşkil edir. Bu missiyanı isə Ulu Öndərimizdən sonra yalnız Sizin kimi rəhbər icra edə bilərdi. Bu baxımdan Siz Ümummilli Liderimizin dəst-xəttini çox layiqli şəkildə davam etdirirsiniz.

İnşallah, biz - kəlbəcərlilər, Mingəçevirin mədəniyyət işçiləri, şəhərdəki Heydər Əliyev Mərkəzinin əməkdaşları ömrümüzün sonuna kimi yanınızda olmağı özümüzə şərəf və borc bilirik. Allah Sizi qorusun.

Yasamal rayon sakini Bakı şəhəri, A.Hüseynzadə adına 20 №-li tam orta məktəb-liseyin 11-ci sinif şagirdi Bəylərova Fidan yazır:

Möhtərəm cənab Prezident.

Mən, Bakı şəhəri, Yasamal rayonu, A.Hüseynzadə adına 20 №-li tam orta məktəb-liseyin 11-ci sinif şagirdiyəm. Hazırda bütün dünyada koronavirusla mübarizə getdiyi bir vaxtda Sizin zamanında verdiyiniz müdrik və mühüm qərarlar, qabaqlayıcı tədbirlər və onların nəticəsi göz önündədir. Ulu öndər Heydər Əliyev demişdir: "Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır". Bu şüara sadiq qalan müəllimlər, səbirlə, fədakarlıqla sağlamlığımızın keşiyində dayanan həkimlər, asayişi qoruyan polislər günümüzün qəhrəmanına çevrildilər. Amma belə bir zamanda biz gənclərə ən gözəl örnək, ən xeyirxah müəllim Siz oldunuz. Siz bu gün hər birimizə vətənpərvərlik, xeyirxahlıq, birlik, bərabərlik dərsi keçdiniz. Siz öz çıxışlarınızda daim vurğulayırsınız: "Gərək hər birimizin nəbzi Vətənin nəbzi ilə birgə vursun". Bu ağır günlərdə də Sizin nəbziniz Vətənin və vətən övladının nəbzi ilə bir vurdu.

Əziz Prezidentimiz, biz əminik ki, Allahın köməyi, xalqımızın dəstəyilə bu ağır sınaqdan daha güclü və üzüağ şəkildə çıxıb, ali məktəblərə qəbul imtahanlarında iştirak edib, arzularımızı reallaşdıra biləcəyik. Çünki biz birlikdə güclüyük. Bu birlik Azərbaycanı zirvədən-zirvəyə aparıb, aparır və aparacaqdır.

Zaqatala rayon sakini jurnalist, Əməkdar Mədəniyyət İşçisi Mehdiyeva Elmira yazır:

Çox hörmətli cənab Prezident.

Bu gün bütün dünya koronavirus pandemiyası ilə vuruşur. Dünya bu virusun qarşısında aciz qalıb. Belə bir çətin vaxtda Azərbaycan xalqı öz dövlətini, şəxsən Sizi, yanında görməklə, öz Prezidentindən hər gün, hər an qayğı hiss etməklə təbii ki, böyük məmnunluq hissi keçirir. Biz jurnalistlər daim Sizin siyasətinizi dəstəkləmişik. Bu gün sübut olundu ki, bəşəriyyətin ən ali dəyəri elə sadəcə olaraq insanlıqdır. Sizin də siyasətinizin əsasında məhz bu humanist ideallar dayanır. Siz təhlükəni hiss etdiyiniz ilk gündən pandemiyaya qarşı hər bir tədbiri addım-addım həyata keçirdiniz. Bu tədbirlər həyati əhəmiyyət daşıdı. Çünki Azərbaycan elə bir geosiyasi məkanda yerləşir ki, burada virus təhlükəsi hər an qarşısıalınmaz bir hala çevrilə bilərdi. Bu gün hər kəs öz vətəndaşlıq mövqeyini ortaya qoymağı bacarmalı, Prezidentinin arxasında olmalıdır. Çünki, bu birlik imkan verəcək ki, biz pandemiyaya qalib gələk. Sizin rəhbərliyinizlə həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində tezliklə o gün gələcək. Yenidən həyat öz axarına düşəcək, yenidən uşaqlarımız məktəbə, bizlər də öz işimizə-gücümüzə gedə biləcəyik. Hər kəsə səbr diləməklə yanaşı, Sizə cansağlığı arzu edirəm. Qoy həyatımız əvvəlki axarına qayıtsın. İnsanlıq yaşasın. Həyat məhz insanların varlığı ilə gözəldir.

Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər sakini tələbə Kərimov Kərim yazır:

Möhtərəm cənab Prezident.

Mən bir gənc olaraq Sizə dərin minnətdarlığımı bildirmək istəyi-

# “Siz Azərbaycanı yaşadır, inkişaf etdirirsiniz”

rəm. Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində ucaltdığı əzəmətli, müstəqil Azərbaycanın bugünkü inkişafı birmənalı olaraq Sizin uğurlu siyasətinizin nəticəsidir.

Bütün dünyanı ağuşuna alan koronavirus (COVID-19) pandemiyasının Azərbaycana təsirinin aradan qaldırılması istiqamətində hazırlanan dövlət proqramı bir daha sübut edir ki, ürəyi xalqla döyünən, hər bir vətəndaşının yanında olan Prezidentimiz var. Bu çətin günlərdə xalqın sağlamlığını və rifahını əsas götürərək, gördüyünüz işlər bizi də ölkəmizin firavanlığı üçün əlimizdən gələni əsirgəməməyə həvəsləndirir. Əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklər tezliklə arxada qalacaqdır. Allah Sizi və ailənizi qorusun.

Qubadlı rayon sakini Əməkdar müəllim Salmanov Çingiz yazır:

Möhtərəm cənab Prezident.

Bu gün bəşəriyyət ağır sınaq qarşısındadır. Sərhəd tanımayan koronavirus infeksiyası Yer kürəsinin sakinlərini, eyni zamanda ölkəmizin vətəndaşlarının sağlamlığını təhdid altına almışdır. Qorxunc infeksiyanın ölkəmizdə yayılmasının qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər Sizin nəzarətiniz altında davam etdirilir. Yaranmış vəziyyətlə əlaqədar elan olunmuş karantin dövründə dünyanın bir çox ölkələrindən fərqli olaraq Azərbaycanın iqtisadi böhran yaşamaması, əhalinin ərzaq və digər zəruri mallara ehtiyaclarının ödənilməsində heç bir problem olmaması, işsizlərə 190 manat yardım edilməsi, sahibkarlara maliyyə dəstəyinin göstərilməsi bir daha ölkə rəhbəri kimi daim xalqın yanında olmağımızın bariz nümunəsidir.

Sizin “Biz birlikdə güclüyük!” çağırışınız xalqımızın milli birliyinə stimul oldu və pandemiyaya qarşı mübarizədə hər birimizi həmrəyliyə səslədi. Cənab Prezident, Sizə dərin hörmətimi və təşəkkürümü bildirir, Azərbaycan dövlətinin inkişafı, ölkə vətəndaşlarının sağlam gələcəyi naminə gördüyünüz əvəzsiz işlərinizdə uğurlar arzulayıram.

Şamaxı şəhər sakini Sadıqova Əqidə yazır:

Möhtərəm cənab Prezident.

Sizin koronovirus pandemiyası ilə əlaqədar atdığınız qabaqlayıcı addımların nəticəsidir ki, ölkəmizdə hazırda insan itkiləri çox azdır. “Evdə qal” kampaniyasına Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şamaxı rayon komitəsi də qoşulub. İşçilərin aztəminatlı ailələrə sanlalması, aztəminatlı ailələrə müavinətin verilməsi, ianələr üçün fondun yaradılması, sahibkarlara göstərilən dövlət dəstəyi təqdirəlayiq işlərdir. “Biz birlikdə güclüyük!” çağırışınız bu gün hər bir Azərbaycan vətəndaşının devizinə çevrilib. Sizin təşəbbüsünüzə biz də qoşularaq yaşlı insanlara, aztəminatlı imkansız ailələrə ərzaq paketi paylamışıq. Etdiyiniz bütün işlərə görə Sizə sonsuz təşəkkürümüzü bildirir və belə bir Prezidentimiz olduğu üçün qürur hissi keçiririk. Hər işdə Sizi dəstəklədiyimizi və arxanızda olduğumuzu bildiririk. Uca Tanrı Sizi və xalqımızı qorusun.

Naxçıvan Muxtar Respublikası, Ordubad rayon sakini Fərrux Nağızadə yazır:

Çox hörmətli cənab Prezident.

Siz 2003-cü ildə əlinizi müqəddəs Qurani-Kərimin üzərinə qoyub hər bir azərbaycanlının Prezidenti olacağınızı bildirdiniz və sözünüzün üstündə durdunuz. 2016-cı ildə Lələtəpə qələbəsindən sonra Naxçıvan Muxtar Respublikasının işğal olunmuş bir sıra ərazilərinin azad edilməsi ilə xalqın inamını daha da möhkəmlətdiniz. İndi isə dünyanı bürüyən epidemiyadan xalqımızı qorumaq gecəniz-gündüzünüz yoxdur. Bunu hər kəs anlayır, başa düşür, Sizi bağrına basır. Azərbaycanın hər sahədə inkişafı diqqət mərkəzindədir. İmkansız insanlara ayrılan sosial yardım, tələbələrə, qaçqınlara olan diqqətiniz göz qabağındadır. Biz birlikdəyik, birlikdə güclüyük.

Çox hörmətli cənab Prezident, Ordubad rayonunun çoxsaylı müharibə, arxa cəbhə və əmək veteranları Sizin daxili və xarici siyasətinizi dəstəkləyir və bəyan edirlər ki, hər an Sizinlədirlər.

Balakən rayonu, Qazma kənd sakini Mirəliyev Xəlifə yazır:

Hörmətli cənab Prezident.

Dünyamızı bürüyən koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Həyata keçirdiyiniz təxirəsalınmaz, qabaqlayıcı tədbirlərin və vaxtında verilmiş qərarların nəticəsidir ki, Azərbaycanın tezliklə bu bəladan xilas olacağına hər kəsdə əminlik yaranıb. Son günlər virusdan sağalan xəstələrin sayının virusa yoluxanların sayını üstələməsi bunu deməyə əsas verir.

Cənab Prezident, Sizə Azərbaycan vətəndaşının sağlamlığı naminə gördüyünüz qətiyyətli tədbirlərə görə minnətdarlığımı bildirir, çətin və şərəfli işinizdə uğurlar arzulayıram. Allah Sizi və xalqımızı qorusun. Biz birlikdə güclüyük.

Neftçala rayonu, Aşağı Surra kənd sakini Quliyev Rövşən yazır:

Çox hörmətli Prezidentimiz.

Hazırda Yer kürəsinin 200-dən çox ölkəsinə yayılan COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin uzaqgörən siyasətinizin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının siyahısında Azərbaycan bu xəstəlikdən ölüm sayına görə sonuncu pillələrdədir. Bu gün dünyanı aciz vəziyyətə salmış, səhiyyəsi, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələri belə çətinliklər qarşısında qoyan koronavirusla mübarizədə xalqımız üçün gördüyünüz işlər, verdiyiniz uzaqgörən qərarlar insanların Sizə olan inam və güvənini daha da möhkəmləndirdi.

Cənab Prezident, bu yolda Sizə və xalqımıza Allahdan kömək diləyirik. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz birlikdə bu çətinliyin öhdəsindən də layiqincə gələcəyik.

İsmayıllı rayon sakini Faxtiyev İsmayıl yazır:

Möhtərəm cənab Prezident.

Koronavirus pandemiyası bütün dünyada olduğu kimi, Azərbaycanda da böyük həyəcana səbəb olub. Bu bəlanın qarşısını almaq üçün Sizin səmərəli, qabaqlayıcı tədbirlər görməyiniz ölkəmizin bu bəladan az itkilərlə çıxacağına əminlik yaradıb. Cənab Prezident, dövlətimizi, Vətənimizi, xalqımızı sevən, parlaq gələcəyi və ideyaları olan İsmayıllı gəncləri adından bildirmək istəyirik ki, Sizin hər zaman vurğuladığınız kimi, əsrlərboyu yaşatdığımız milli-mənəvi dəyərləri qoruyaraq bu çətin günlərdə tövsiyənizlə köməyə və yardıma ehtiyacı olan böyüklərimizin, xəstə və fiziki məhdudiyyətli şəxslərin, tənha yaşayan nənə və babalarımızın hər zaman yanındayıq.

Sizin uzaqgörənliyiniz və qabaqlayıcı tədbirləriniz sayəsində ölkəmizdə virusun kütləvi şəkildə yayılmasının qarşısı alınıb və xəstəlik nəzarətdə saxlanılır. Əhalini virus təhlükəsindən qorumaq üçün ölkədə xüsusi karantin rejimi elan olundu, dezinfeksiya işləri aparıldı, səhiyyə sahəsində gücləndirilmiş iş rejiminə keçildi.

Biz Sizin çağırışlarınızın və qərarlarınızın məsuliyyətini yaxşı anlayırıq. Sizi əmin edirik ki, etimadınızı doğrultmaq üçün daim yorulmadan, böyük əzm və səylə çalışacağıq. Çünki, biz birlikdə güclüyük!

Qəbələ rayon sakinləri Yusifov Seymur və Qəribov Samir yazır:

Hörmətli cənab Prezident.

Dövlətimizin və xalqımızın bu çətin günlərində aztəminatlı ailələrə edilən müxtəlif yardımlara və koronavirus pandemiyasının yayılmasının qarşısını almaq üçün atdığınız bütün addımlara görə gənc ailə başçıları olaraq ailə üzvlərimizin adından Sizə təşəkkür edirik.

Cənab Prezident, aparıcı dövlətlərin bu virusdan çox əziyyət çəkdiyini bilirik. Sizin verdiyiniz düzgün qərarlar nəticəsində xalqımız bu bəladan minimum itkilərlə çıxmaqdadır. Bu, bir daha sübut edir ki, Sizin rəhbərliyinizlə ölkəmiz gündən-günə inkişaf edir, xalqımız əmin-amanlıq içində yaşayır. Sizə bir daha təşəkkürümüzü bildirir, hələ uzun illər ölkəmizə rəhbərlik etməyinizi, Azərbaycanımızı daim ancaq irəli aparmağınızı arzu edirik. Allah Sizi və ailənizi qorusun.

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundan Fərrux Nağızadə: “Çox hörmətli cənab Prezident, Siz 2003-cü ildə əlinizi müqəddəs Qurani-Kərimin üzərinə qoyub hər bir azərbaycanlının Prezidenti olacağınızı bildirdiniz və sözünüzün üstündə durdunuz. 2016-cı ildə Lələtəpə qələbəsindən sonra Naxçıvan Muxtar Respublikasının işğal olunmuş bir sıra ərazilərinin azad edilməsi ilə xalqın inamını daha da möhkəmləndirdiniz. İndi isə dünyanı bürüyən epidemiyadan xalqımızı qorumaqla gecəniz-gündüzünüz yoxdur. Bunu hər kəs anlayır, başa düşür, Sizi bağrına basır. Azərbaycanın hər sahədə inkişafı diqqət mərkəzindədir. İmkansız insanlara ayrılan sosial yardım, tələbələrə, qaçqınlara olan diqqətiniz göz qabağındadır. Biz birlikdəyik, birlikdə güclüyük. Çox hörmətli cənab Prezident, Ordubad rayonunun çoxsaylı müharibə, arxa cəbhə və əmək veteranları Sizin daxili və xarici siyasətinizi dəstəkləyir və bəyan edirlər ki, hər an Sizinlədirlər”.

Balakən rayonunun Qazma kəndindən Xəlifə Mirəliyev: “Hörmətli cənab Prezident, dünyamızı bürüyən koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Həyata keçirdiyiniz təxirəsalınmaz, qabaqlayıcı tədbirlərin və vaxtında verilmiş qərarların nəticəsidir ki, Azərbaycanın tezliklə bu bəladan xilas olacağına hər kəsdə əminlik yaranıb. Son günlər virusdan sağalan xəstələrin sayının virusa yoluxanların sayını üstələməsi bunu deməyə əsas verir. Cənab Prezident, Sizə Azərbaycan vətəndaşının sağlamlığı naminə gördüyünüz qətiyyətli tədbirlərə görə minnətdarlığımı bildirir, çətin və şərəfli işinizdə uğurlar arzulayıram. Allah Sizi və xalqımızı qorusun! Biz birlikdə güclüyük!”.

Neftçala rayonunun Aşağı Surra kəndindən Rövşən Quliyev: “Çox hörmətli Prezidentimiz, hazırda Yer kürəsinin 200-dən çox ölkəsinə yayılan COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin uzaqgörən siyasətinizin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatının siyahısında Azərbaycan bu xəstəlikdən ölüm sayına görə sonuncu pillələrdədir. Bu gün dünyanı aciz vəziyyətə salmış, səhiyyəsi, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələri belə çətinliklər qarşısında qoyan koronavirusla mübarizədə xalqımız üçün gördüyünüz işlər, verdiyiniz uzaqgörən qərarlar insanların Sizə olan inam və güvənini daha da möhkəmləndirdi. Cənab Prezident, bu yolda Sizə və xalqımıza Allahdan kömək diləyirik. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz birlikdə bu çətinliyin öhdəsindən də layiqincə gələcəyik”.

İsmayıllı rayonundan İsmayıl Faxtiyev: “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası bütün dünyada olduğu kimi, Azərbaycanda da böyük həyəcana səbəb olub. Bu bəlanın qarşısını almaq üçün Sizin səmərəli, qabaqlayıcı tədbirlər görməyiniz ölkəmizin bu bəladan az itkilərlə çıxacağına əminlik yaradıb. Cənab Prezident, dövlətimizi, Vətənimizi, xalqımızı sevən, parlaq gələcəyi və ideyaları olan İsmayıllı gəncləri adından bildirmək istəyirik ki, Sizin hər zaman vurğuladığınız kimi, əsrlərboyu yaşatdığımız milli-mənəvi dəyərləri qoruyaraq bu çətin günlərdə tövsiyənizlə köməyə və yardıma ehtiyacı olan böyüklərimizin, xəstə və fiziki məhdudiyyətli şəxslərin, tənha yaşayan nənə və babalarımızın hər zaman yanındayıq. Sizin uzaqgörənliyiniz və qabaqlayıcı tədbirləriniz sayəsində ölkəmizdə virusun kütləvi şəkildə yayılmasının qarşısı alınıb və xəstəlik nəzarətdə saxlanılır. Əhalini virus təhlükəsindən qorumaq üçün ölkədə xüsusi karantin rejimi elan olundu, dezinfeksiya işləri aparıldı, səhiyyə sahəsində gücləndirilmiş iş rejiminə keçildi. Biz Sizin çağırışlarınızın və qərarlarınızın məsuliyyətini yaxşı anlayırıq. Sizi əmin edirik ki, etimadınızı doğrultmaq üçün daim yorulmadan, böyük əzm və səylə çalışacağıq. Çünki, biz birlikdə güclüyük!”.

Qəbələ rayonundan Seymur Yusifov və Samir Qəribov yazırlar: “Hörmətli cənab Prezident, dövlətimizin və xalqımızın bu çətin günlərində aztəminatlı ailələrə edilən müxtəlif yardımlara və koronavirus pandemiyasının yayılmasının qarşısını almaq üçün atdığınız bütün addımlara görə gənc ailə başçıları olaraq ailə üzvlərimizin adından Sizə təşəkkür edirik. Cənab Prezident, aparıcı dövlətlərin bu virusdan çox əziyyət çəkdiyini bilirik. Sizin verdiyiniz düzgün qərarlar nəticəsində xalqımız bu bəladan minimum itkilərlə çıxmaqdadır. Bu, bir daha sübut edir ki, Sizin rəhbərliyinizlə ölkəmiz gündən-günə inkişaf edir, xalqımız əmin-amanlıq içində yaşayır. Sizə bir daha təşəkkürümüzü bildirir, hələ uzun illər ölkəmizə rəhbərlik etməyinizi və Azərbaycanımızı indiki kimi daim irəli aparmağınızı arzulayırıq. Allah Sizi və ailənizi qorusun!”.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Aprelin 24-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası Milli Məclisin Sədri Sahibə Qafarova açaraq gündəliyi təqdim edib. Gündəlik təsdiq olunduqdan sonra cari məsələlərin müzakirəsi olub.***

Cari məsələlərin müzakirəsi zamanı Milli Məclisin komitə sədrləri Zahid Oruc, Səməd Seyidov, Qənirə Paşayeva, deputatlardan Məlahət İbrahimqızı, Vahid Əhmədov, Tahir Kərimli, Fazil Mustafa, Azay Quliyev, Sahib Alıyev, Rauf Əliyev, Jalə Əliyeva, Aydın Mirzəzadə, Sabir Rüstəmxanlı, Razi Nurullayev, Bəhruz Məhərrəmov müxtəlif məsələlərlə bağlı fikirlərini bildiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

Əvvəlcə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi dinlənilib.

Məruzəni diqqətə çatdıran insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva bildirib ki, 2019-cu il uğurlu olub və bütün sahələrdə inkişaf təmin edilib. Ötən il iqtisadi islahatların həyata keçirilməsi, vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində 100-dən çox fərman və sərəncam imzalanıb. 4,2 milyon vətəndaşı əhatə edən sosial paket həyata keçirilib. Bütün bu faktlar bir daha Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində ölkə vətəndaşlarının dayandığını təsdiq edir.

Qeyd edilib ki, ötən il insan hüquqlarının etibarlı müdafiəsi baxımından da uğurlu olub. Dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, icmalar və beynəlxalq təşkilatlarla işgüzar əməkdaşlıq şəraitində fəaliyyətini davam etdirən ombudsman Konstitusiya Qanunu ilə verilmiş səlahiyyətlər çərçivəsində insan hüquqlarının müdafiəsi sahəsində əhatəli iş aparıb, müxtəlif tədbirlər həyata keçirib.

2019-cu il ərzində ombudsmanın ünvanına 25.500 müraciət daxil olub ki, bu da əvvəlki illə müqayisədə 25 faiz çoxdur. Ombudsman və əməkdaşlar tərəfindən Aparatda və regional mərkəzlərdə, habelə respublikanın müxtəlif şəhər və rayonlarında, məcburi köçkünlərin məskunlaşdıqları qəsəbələrdə əhali qrupları ilə görüşlər, həmçinin cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlama yerlərinə, qanunsuz miqrantların saxlanma mərkəzlərinə, hərbi hissələrə, hauptvaxtlara, uşaqlar, pensiya yaşına çatmış, habelə əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinə, internatlara, səhiyyə və təhsil müəssisələrinə baxışlar və başçəkmələr zamanı ümumilikdə 3013 şəxs qəbul edilib.

Qeyd olunub ki, məruzədə ombudsmanın mülki və siyasi, iqtisadi-sosial və mədəni hüquqların, əhali qruplarının hüquqlarının müdafiəsi ilə bağlı, o cümlədən insan hüquqları sahəsində maarifləndirmə, elmi-analitik iş, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq sahəsində gördüyü işlər öz əksini tapıb.

Ombudsman öz çıxışında ölkədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində vəziyyəti geniş təhlil edib, koronavirus pandemiyasına qarşı mübarizədə hökumətin həyata keçirdiyi tədbirlər, eyni zamanda, insan hüquqlarının daha etibarlı müdafiəsi və səmərəli təmin edilməsi barədə fikirlərini bildirib.




**İclasda ombudsmanın illik məruzəsi dinlənilib, bir sıra sənədlərə dəyişikliklər edilib, Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri seçilib**

Məruzə ətrafında müzakirələr zamanı insan hüquqları komitəsinin sədri Zahid Oruc, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlardan Məlahət İbrahimqızı, Əli Məsimli, Tahir Kərimli, Aydın Mirzəzadə, Naqif Həmzəyev, Qüdrət Həsənquliyev, Azər Badamov məruzə ilə bağlı fikirlərini səsləndiriblər, sual və təkliflərlə çıxış ediblər.

Müzakirələr zamanı qeyd olunan məsələlərə münasibət bildirən Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, Türkiyə Böyük Millət Məclisinin yaranmasının 100-cü ildönümü münasibətilə dünən Milli Məclis adından Türkiyə Böyük Millət Məclisinə təbrik məktubu ünvanlanıb.

Sədr, həmçinin qeyd etdi ki, dünən Türkiyə parlamentinin sədri Mustafa Şəntopla telefonla danışıb, türkiyəli deputatları Milli Məclis adından təbrik edib.

Müzakirələrin sonunda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi səsə qoyularaq məqbul hesab edilib.

Fasilədən sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevin, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun və Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyevin məlumatları dinlənilərək "Torpaq icarəsi haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunlarda, "Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında" qanunlarda və Torpaq Məcəlləsində, həmçinin "Elm haqqında", "Təhsil haqqında" və "Lisenziyalar və icazələr haqqında", "Elm haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişikliklər edilib. Bildirilib ki, bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

"Nəqliyyat haqqında", "Aviasiya haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Dəniz limanları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov məlumat verib. Bildirib ki, bu dəyişiklik qanunların icrasının təkmilləşdirilməsi məqsədilə edilir. Bu dəyişiklik də səsə qoyularaq qəbul olunub.

Deputatlar Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanovun və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənovun məlumatlarını dinlədikdən sonra "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda, həmçinin Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Banklar haqqında" və "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" qanunlarda da uyğunlaşdırma xarakterli dəyişikliklər ediblər.

"Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşu barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, təklif olunan dəyişiklik xaricdəki vətəndaşlarımızdan konsul əməliyyatları üçün tutulan bir sıra rüsumların 3-4 dəfə azaldılmasını nəzərdə tutur. Bundan başqa, 4 yeni rüsum da müəyyən olunur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında", "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" qanunlara, Mülki Məcəlləyə və Ticarət Gəmiçiliyi Məcəlləsinə də dəyişiklik edilməsi haqqında məsələlər birinci oxunuşda qəbul edilib.

Deputatlar "Yol hərəkəti haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında", "Dövlət rüsumu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də, həmçinin Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini də ikinci oxunuşda qəbul ediblər.

Bildirilib ki, bu dəyişikliklər əməyin stimullaşdırılması ilə bağlıdır və büdcə vəsaitlərinin daha da gücləndirilməsinə xidmət edir.

Məlumat verilib ki, Miqrasiya Məcəlləsinə və "Dövlət rüsumu haqqında" Qanuna təklif olunan dəyişikliklər isə vizaların verilməsinin əhatəsini genişləndirəcək və vizanın verilmə müddəti qısaldılacaq. Hər iki qanun layihəsi ikinci oxunuşda təsdiqlənib.

İclasda "Dövlət satınalmaları haqqında" Qanunda, Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, həmçinin "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Gündəlikdəki növbəti üç qanun layihəsini - Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məsələləri Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim edib. Bildirilib ki, Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsinə dair qanun layihələri "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə əlaqədardır. Qanun layihələri ölkədə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə hazırlanıb. Kamal Cəfərov birinci oxunuşdan sonra nəzərə alınmış təklifləri diqqətə çatdırıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanunun 10-cu maddəsində edilən dəyişiklik də 2019-cu il tarixli 3 aprel Prezident Fərmanı ilə əlaqədar olub, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşının bu barədə ölkəmizin Xarici İşlər Nazirliyinə və Dövlət Miqrasiya Xidmətinə yazılı məlumat verməsi vacibliyini ehtiva edir.

Müzakirələrdən sonra bu üç qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Daha sonra deputatlar Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında məsələni də səsə qoyaraq təsdiqləyiblər.

İclasda müxtəlif məsələlərin müzakirəsi zamanı komitə sədri Hicran Hüseynova, deputatlardan Qüdrət Həsənquliyev, Rasim Musabəyov, Tahir Kərimli, Aydın Hüseynov, Erkin Qədirli, Rəşad Mahmudov, Arzu Nağıyev, Siyavuş Novruzov, Kamran Bayramov, Bəhruz Məhərrəmov, Əli Məsimli, Azay Quliyev, Məlahət İbrahimqızı, Azər Kərimli, Etibar Əliyev, Fəzail Ağamalı, Razi Nurullayev çıxış edərək öz fikirlərini bildiriblər. Bununla da Milli Məclisin iclası başa çatıb.

# Xalqının mənafeyini hər şeydən uca tutan Lider



**MEHRİBAN ABASQULİYEVA,**
*YAP Sabunçu rayon təşkilatının sədri*

***Bu bir aksiomadır - hər bir dövlət xadiminin, tarixi şəxsiyyətin real gücü, qüdrəti tarixin ən ağır, ən çətin dönəmlərində üzə çıxır. Bu faktorlar Azərbaycan xalqına nəsib olub. Və Azərbaycan xalqı həqiqətən xoşbəxt xalqlardandır ki, indiki son dərəcə narahat, taleyüklü bir dönəmdə ölkəmizə Prezident İlham Əliyev kimi müdrik siyasətçi, görkəmli dövlət xadimi rəhbərlik edir.***

Bu gün dünyanın bir çox böyük dövlətlərinin belə koronavirus pandemiyasının ağır fəsadları qarşısında zəif, naəlaac qaldığı bir məqamda, Azərbaycanda Prezident İlham Əliyevin müdrik liderliyi ilə bu təhlükənin önlənməsi, əhalinin sağlamlığının qorunması üçün ardıcıl, düşünülmüş addımlar atılıb. Bu gün Azərbaycan xalqı və dövləti, bəlkə də, son yüzilin ən ağır sınağından uğurla, zərərlə çıxmaq üzrədir. Təhlükənin ilk anından "Biz birlikdə güclüyük" deyə bəyan edən və dövlətin bütün resurslarını səfərbər edərək bugünkü müsbət nəticəyə nail olundu - ən az insan tələfatı. Dövlət başçısı, həmçinin, bu virusun qarşısını almaq üçün "Evdə qal" kampaniyasına əməl edən əhalinin üzləşdiyi sosial və iqtisadi problemlər də həll edilməsi üçün həftə ərzində keçirdiyi bir videomüşavirə və bir videoiclasda bu məqamlara toxunuldu və onların yoluna qoyulması üçün həqiqətən çox böyük addımlar atıldı.

Belə ki, Prezidentin tapşırığı ilə dövlətdən yardım alan insanların sayı birdən-birə 3 dəfə artırılaraq, 200 mindən 600 minə çatdırıldı. Bu, o deməkdir ki, faktik olaraq, ehtiyacı olan heç kim bu yardımdan kənarda qalmayacaq. Dövlət göstərdi ki, məqsəd real olaraq hər şeydən üstün tutduğu vətəndaşı yaranan problemlərin qarşısında tək qoymamaqdır. Həm də təkcə işsizləri yox. Pandemiyadan zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilir. Həmçinin, 300 minə yaxın mikrosahibkara da maliyyə vəsaiti ayrılıb. Bu, bir daha Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir.

"Mən bunu dəfələrlə demişəm, hələ koronavirusdan daha əvvəl demişəm, - bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik",- deyə cənab İlham Əliyev videoiclas zamanı vurğulamışdır.

Bəli, bütün bunları xalqımız görür və həmişə də öz Prezidentinin yanındadır. Son günlərdə dövlət başçısına gələn təşəkkür məktubları da bunu bir daha sübut edir. Prezidentin saytında oxuya biləcəyimiz məktublarda insanlar böyük səmimiyyətlə və ürəkdən gələn sözlərlə dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir, "Biz birlikdə güclüyük" şüarının sadəcə bir söz olmadığını ifadə edirlər. Əslində hər zaman cənab İlham Əliyevin bütün düşüncələri, qərarları və addımları vətəndaşın rifahına yönəlmişdi. Xüsusi dövrdə isə belə olduğu xüsusilə hiss edilir.

Və bu gün 750 mindən çox Yeni Azərbaycan Partiyasının üzvləri SİZİN kimi LİDERLƏ fəxr edirik. Və Hər zaman dövlətimizin rifahı naminə atacağınız qərarlarınızda həmişə SİZİNLƏYİK!

## "Olaylar" qəzetinin Baş redaktoru Yunus Oğuza



Azərbaycanın media məkanında öz mövqeyi və fərqli dəstxətti olan "Olaylar" qəzeti və eyni adlı informasiya agentliyinin 25 yaşı tamam olur. Ötən 25 il ərzində media qurumu mövzu rəngarəngliyi, oxunaqlı araşdırmaları, geniş marağa və diqqətə səbəb olan təhlil və şərhləri ilə ciddi irəliləyişə nail olub, maarifləndirmə baxımdan böyük uğurlara imza atıb. Bu baxımdan öz xüsusi mövqeyi, işi və dəst-xəttilə fərqlənən "Olayalar" qəzeti və "Olaylar" İnformasiya Agentliyi Azərbaycan cəmiyyətində tanınan, ictimai rəydə qəbul olunan kütləvi informasiya vasitələrindəndir. Obyektiv, qərəzsiz və operativ informasiyalar yayması nəticəsində media qurumu özünə geniş oxucu rəğbəti qazanıb. İstər ölkə daxilində, istərsə də, xaricdə yaşayan soydaşlarımız bu media qurumu ilə geniş əməkdaşlıq edir, söz-söhbətlərini, qayğılarını, eləcə də, cəmiyyətə ünvanlanan müsbət mesajlarını bu media qurumu ilə bölüşürlər. Bu əlamətdar gün münasibətilə kollektivimiz adından "Olaylar" qəzetinin və "Olaylar" İA- nin Baş redaktoru Yunus Oğuzu və kollektivini təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayır, hər zaman qələminizin iti, sözünüzün kəsərli olmasını arzulayıram.

**Bəhruz Quliyev**
**"Səs" Media**
**Qrupunun rəhbəri**

## "Xoşməramlı addımlar zamanın iqtidarın xeyrinə işlədiyini göstərir"



"İqtidar düzgün və milli maraqlara xidmət edən siyasət aparır. Parlamentdə yer qazanan müxalifət partiyalarından Milli Məclisin rəhbərliyində təmsil olunan oldu. Bununla da ehtirasları küçələrdən parlamentə keçirdi". Bunu SİA-ya açıqlamasında ASDP sədri Araz Əlizadə deyib.

Onun sözlərinə görə, Ali Məhkəmənin keçirilən plenum iclasında "REAL"ın sədri İlqar Məmmədovun və "REAL" Partiyasının İdarə Heyətinin üzvü, İnsan Hüquqları Klubunun sədri Rəsul Cəfərov barəsində cinayət işi üzrə şikayətlərinə baxılarkən, hər iş üzrə cinayət işinə bəraətverici əsaslarla xitam verilib və onlara təzminat ödənilməsi qərarı verilib: "Bu Azərbaycanda ədalətli, humanist məhkəmənin mövcudluğu deməkdir. Siyasi baxışlarına görə, kiminsə, təqib olunmasından söhbət gedə bilməz. Müxalifətin bu istiqamətdə hay-küy qaldırması isə boşboğazlıqdan başqa bir şey deyil. Həm də, özlərinin ağır durumlarını daha da gərginləşdirilər. Çünki, cəmiyyət onların hay-küy qaldırmaqla məqsədlərinin nədən ibarət olduğunu çox yaxşı bilir".

A.Əlizadə dövlətin Azadlıq Partiyasının sədri Əhməd Oruca və ailəsinə göstərdiyi maddi və mənəvi dəstəyin xeyirxahlığın nümunəsi olduğunu bildirdi: "Bu kimi xoşməramlı addımlar zamanın iqtidarın xeyrinə işlədiyini göstərir. Müxalifət isə bunun fonunda tarixin zibilliyində eşələnməkdədir".

## Mais Səfərli: "Hamı bilir ki, Əli Kərimli ağ yalanlar danışır"



"Azərbaycanda qətiyyətli, demokratik islahatları aparılır. Bu islahatlar özündə yeni münasibətlər sistemini ehtiva edir ki, bu da cəmiyyətdə birliyin və bərabərliyin daha da möhkəmlənməsinə imkanlar yardır". Bunu SİA-ya açıqlamasında "Yurddaş" partiyasının sədri Mais Səfərli deyib.

Onun sözlərinə görə, iqtidar-müxalifət dialoqunun qurulması siyasi partiyalar arasında canlı təmasların yaranması deməkdir: "Ali Məhkəmənin "REAL" partiyasının sədri İlqar Məmmədov və həmin partiyanın idarə heyətinin üzvü Rauf Cəfərov haqqında bəraət qərarı verməsi ölkəmizdə qanunçuluğun qorunduğunun və məhkəmələrin müstəqil olduqlarının bariz sübutu sayıla bilər. Bu arada dövlət "Azadlıq" partiyasının sədri Əhməd Oruca və ailəsinə maddi dəstək göstərdi. Bundan öncə isə, Müsavatın keçmiş başqanı İsa Qəmbərin müalicəsini həyata keçirmişdir. Bütün bunlar ölkə başçısı İlham Əliyevin siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşın Prezidenti olduğunu göstərir".

M.Səfərli təəssüf hissi ilə bildirib ki, bəzi müxalif partiya funksionerləri və onların xaricdəki trolları ABŞ-dan və Avropadan yayımlanan internet TV-lər vasitəsi ilə hədyanlar səsləndirilər: "Onların fəaliyyətləri siyasi fəaliyyət deyil, düşmənçilikdir. Əgər sağlam düşüncə daşıyıcısı olsa idilər, tərəfdarlarına "Evdə qal" çağırışına qoşulmağa dəvət edərdilər: "Əli Kərimlinin rəhbərlik etdiyi AXCP üzvləri karantin qaydalarını pozaraq polislə qarşıdurmaya gedirlər. Bu qanunsuz əməllə yanaşı Ə.Kərimli Azərbaycanı Ermənistanla müqayisə edir, absurddur. Hər kəs internet vasitəsi ilə Ermənistanın necə zəlil gündə olduğunu görə bilər. Hamı bilir ki, Ə.Kərimli ağ yalanlar danışır. Eləcə də, "Milli Şura"nın sədri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı Ə.Kərimli kimi şər və böhranlar səsləndirirlər" .

## "Gözlənilən vergi güzəşti paketi milli iqtisadiyyatımızın ayaqda qalması üçün ciddi baza yarada bilər"



Gözlənilən vergi güzəşti paketi hazırkı mürəkkəb iqtisadi şəraitdə milli iqtisadiyyatımızın həm sosial, həm iqtisadi, o cümlədən də fiskal dayanıqlılıq baxımından ayaqda qalması üçün ciddi baza yarada bilər. Bu sözləri AZƏRTAC-a Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Rusiya məktəbinin direktorunun müavini, professor Elşad Məmmədov deyib.

O bildirib ki, ölkə iqtisadiyyatının xarici iqtisadi şokların təsiri altında dayanıqlılığının qorunması üçün dövlətimizin başçısının tapşırığı ilə hazırlanan iqtisadi paketlər çərçivəsində vergilərlə bağlı İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış paket milli iqtisadiyyatımızın həm fiskal, həm də bütövlükdə sosial iqtisadi baxımdan dayanıqlılığının qorunmasına xidmət edir: "Nəzərə almaq lazımdır ki, bu paket kifayət qədər mürəkkəb iqtisadi şəraitdə həm işgüzar fəallığın qorunmasına, həm sosial baxımdan əhalinin geniş təbəqələrinin müdafiə olunmasına, həm də fiskal siyasətin dayanıqlılığının qorunmasına müsbət təsirini göstərəcək. Paketin konkret təsnifatına nəzər salsaq biz, ilk növbədə onu qeyd etməliyik ki, paketin sosial tərəfi olduqca önəmlidir. Bu paketin tətbiqi nəticəsində biz, görə bilərik ki, faktiki olaraq ən çox pandemiya ilə bağlı olan proseslərdən əziyyət çəkən iqtisadi sahələrə dəstəyin verilməsi nəzərdə tutulur. Bu da əhalinin geniş təbəqəsinin sosial rifahının gücləndirilməsi və qorunması üçün çox önəmlidir. Əgər biz, paketin strukturuna nəzər salsaq, şübhəsiz ki, məhz bu ağır iqtisadi şəraitdə sadələşdirilmiş vergilər ödəyən biznes kateqoriyasına, yəni dövriyyəsi az olan biznes kateqoriyasına 50 faizlik sadələşdirilmiş vergilərlə bağlı güzəştlərin verilməsini qeyd etməliyik. Bu, hazırkı şəraitdə məhz pandemiyadan əziyyət çəkən biznes təbəqələri üçün kifayət qədər əhəmiyyətli bir dəstək formasıdır. Eyni zamanda, biz, sosial sığortalarla bağlı ödənişlərin azalmasına da toxunmalıyıq. Bu da fiskal yığımlar baxımdan biznes qurumları üçün xeyli dərəcədə fiskal yükün azaldılması deməkdir. Çünki sosial sığorta ilə bağlı olan xərclər də biznes qurumu üçün fiskal yığımların bir hissəsi kimi çıxış edir. Eyni zamanda, mənfəət vergisinin 75 faiz azaldılması olduqca önəmlidir. Burada biz, şirkətlərə dəstəyin verilməsi ilə yanaşı, bütövlükdə milli iqtisadiyyatımızın investisiyalar baxımından stimullaşdırılması məsələsini qeyd etməliyik ki, bu, olduqca önəmlidir. Çünki hazırkı şəraitdə mümkündür ki, dövlət kapital qoyuluşlarında azalma olsun və belə olan halda sözsüz ki, biznes tərəfdən özəl investisiyaların artımına çox ciddi ehtiyac var. Düşünürəm ki, 75 faizlik mənfəət verginin ödənilməsi ilə bağlı azalma, eyni zamanda, amortizasiya xərclərinin investisiyaların artımına səbəb ola bilər. Bu da milli iqtisadiyyatımız üçün olduqca ciddi dəstəkdir".

"Sərnişindaşımalarla, ictimai iaşə bağlı olan sahələrdəki vergi güzəştləri də şübhəsiz ki, iqtisadiyyatın hazırkı şəraitdə təzyiq hiss edən sahələri üçün bir dəstək mexanizmi kimi dəyərləndirilməldir. Bununla yanaşı, vergilərlə bağlı digər mühüm addım sahibkarlıq məqsədilə öz əmlaklarını icarəyə verən biznes kateqoriyaları üçün 14 faizlik gəlir vergisindən azad olunma milli iqtisadiyyatın inkişafı baxımından sahibkarlıqla məşğul olan, əmlaklarını icarəyə verən kateqoriya üçün dəstəkdir. Bu da kifayət qədər geniş kateqoriyadır. Biznes subyektlərinin faktiki olaraq gəlir vergisindən 14 faizlik həcmdə azad olunması, yəni bu gəlir vergisinin sıfırlaşdırılması həmin biznes kateqoriyaları üçün ciddi təşviqedici dəstək mexanizmidir. Eyni zamanda, sahibkarların müddətli olaraq əmlak və torpaq vergisindən azad olunması da şübhəsiz ki, onlara öz işgüzar fəallıqlarının reallaşdırılması üçün stimullaşdırıcı tədbirlər kimi dəyərləndirilməldir. Nəzərə alınmalıdır ki, bu növ vergi kateqoriyaları işgüzar fəallığın, dövriyyənin hansı səviyyədə asılı olmayaraq vergiyə cəlb olunurdular və indiki halda həmin kateqoriya vergiödəyicilərinə güzəştlərin edilməsi onların biznesinin ayaqda qalması üçün çox ciddi şəkildə şərait yaratmış olur. Hesab edirəm ki, reallaşdırılması gözlənilən vergi güzəşti paketi hazırkı mürəkkəb iqtisadi şəraitdə milli iqtisadiyyatımızın həm sosial, həm iqtisadi, o cümlədən də fiskal dayanıqlılıq baxımından ayaqda qalması üçün ciddi baza yarada bilər", - deyə E.Məmmədov əlavə edib.



# Ramazan ayı insanları gözəl niyyət və xeyirxah əməllər naminə birliyə çağırır

***Bu gün "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayının ilk günüdür. Builki Ramazan ayına dünyada sürətlə yayılmaqda olan virus təhlükəsi şəraitində daxil oluruq. İnsan sağlamlığına ciddi təhlükə olan bu bəlanın aradan qaldırılması istiqamətində dövlətimiz və dünya birliyi böyük səylə çalışır, qoruma və müalicə tədbirləri həyata keçirilir. Belə bir mürəkkəb zamanda Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər öz nəticəsini verməkdədir. Bildiyimiz kimi, bu gün müqəddəs bir ayda karantin dövrünün tələblərinə uyğun olaraq, məscid və ziyarətgahlar, ibadətlər müvəqqəti dayandırılıb. Xüsusi karantin rejimi dövründə adət-ənənələrimizə əməl olunur.***

Prezident İlham Əliyevin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasəti, qətiyyətli iradəsi sayəsində Azərbaycan milli dəyərlərə, adət-ənələrinə böyük hörmətlə yanaşan bir ölkədir. Azərbaycan Prezidenti İlham Əliyev islami dəyərlərin milli dəyərlərimizin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirərək belə deyir: "... bizim çox möhkəm təməlimiz var. Bu, bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və nail oluruq ki, gənc nəsil də milli ruhda böyüyür, yetişir. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır".

Tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən və irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə - Azərbaycanda firavan həyat sürməsinə əsas verir. Bu məkanda hər kəs milli mənsubiyyətindən və irqindən asılı olmayaraq, azad nəfəs alır və sərbət fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".



Müstəqil dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Hikmətlər xəzinəsi "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayı da bu gün böyük sevinclə qarşılanır. Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Bir ay insanlar oruc tutmaqla mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirəcək. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə biləcəklər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanırlar.

Bu il iftar süfrəsinin də hər bir evdə yalnız ailə üzvlərinin iştirakı ilə açılması tövsiyə olunur. Bu tövsiyələr hazırda tüğyan edən xəstəlik səbəbindən müvəqqəti səciyyə daşıyır. Bir adamın məsuliyyətsizliyi, laqeydliyi minlərlə günahsız insanın həyatı bahasına başa gələ bilər. Şəriətə görə, insanın sağlığına, sağlamlığına zərər verə biləcək, bədənini zəiflədərək xəstəlik qarşısında aciz hala gətirəcək məqamlara yol verilməməlidir.

Ramazan bayramı Ramazan ayının sonunda, Orucun sona çatması münasibətilə qeyd edilir. Ramazan ayı təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Fitrə canın sədəqəsidir və hər bir imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verilməsi vacibdir.

**Allah oruc və namazlarınızı qəbul etsin.**

***Nəzakət Ələddinqızı***

# "Azərbaycan azsaylı donor ölkələrdəndir"

***"Ya pul itirməli idik ya da insanlarımızın sağlamlığını və biz insanlarımızın sağlamlığını seçdik". Bu sözləri SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu Azərbaycanın pandemiya ilə mübarizədə qlobal reytinqindən danışarkən deyib.***

O bildirib ki, hələlik qlobal miqyasda proseslərə yekun vurulmayıb və pandemiya başa çatmayıb, lakin, pandemiya başa çatdıqdan sonra post-pandemiya dövründə yekunlar açıqlanacaq və hazırda Azərbaycan əhalisinin hər 10 min nəfərinə nəzərən koronavirusa yoluxmaya sayına görə dünya üzrə ən yaxşı yerlərdədir: "Hesab edirəm ki, Azərbaycan bu göstəriciyə əsasən ilk onluqdadır. Eyni zamanda Azərbaycan əhalisinin dövlətin müəyyənləşdirdiyi qaydalara tabeçiliyi də əla vəziyyətdədir. Ölkə rəhbəri bu müddət ərzində keçirilən müşavirələrdə də koronavirusla bağlı məsələlərə münasibət bildirib. Ölkə Prezidenti açıqca bildirdi ki, ya pul itirməli idik ya da insanlarımızın sağlamlığını və biz insanlarımızın sağlamlığını seçdik. Azərbaycan Respublikasının Prezidentinin fəlsəfəsi ondan ibarətdir ki, pulumuz millətimizin sağlamlığına sərf olunmalıdır".



Mübariz Əhmədoğlu vurğulayıb ki, koronavirus dövründə Azərbaycan çox az ölkələrdəndir ki, sırf donor rolundadır: "Çin bütün dünyaya tibbi yardım göstərir. Hazırda dövlətlər arasında qarşılıqlı şəkildə biri-birinə tibbi yardım göstərilir. Azərbaycana isə sırf simvolik olaraq iki dövlət tərəfindən yardım göstərildi. Bu iki ölkə Rusiya və Çin idi. Lakin, Azərbaycan özü də 5 milyon Ümumdünya Səhiyyə Təşkilatına yardım etdi, 5 milyon isə İrana yardım göstərdi. Bu da donorluğun ayrı bir növüdür ki, İran maşınları Azərbaycan ərazsindən Rusiya və Gürcüstana gedərkən onlara xüsusi qaydada Daxili İşlər Nazirliyi əməkdaşları tərəfindən müşahidəçilik edildi. Onlar üçün yolda hər bir şərait yaradıldı. Azərbaycan post-pandemiya dövründə də nəticələrə nəzər saldıqda Azərbaycan birinci onluqda olacaq və bununla bağlı BMT-dən də, Ümumdünya Səhiyyə Təşkilatından da xüsusi təşəkkür məktubumuz olacaq".

## Boris Conson bazar ertəsi günü işə çıxacaq



Böyük Britaniyanın Baş naziri Boris Conson ölkədə koronavirus infeksiyasının yayılmasına qarşı effektiv mübarizə aparmaq üçün bazar ertəsi günü, aprelin 27-də işə çıxmağı planlaşdırır. "The Telegraph" qəzeti yazır ki, koronavirusdan müalicə olunaraq ötən həftə Londondakı xəstəxanadan buraxılan Boris Conson hazırda şəhərkənarı iqamətgahında izolyasıyadadır. Baş nazir öz köməkçilərinə gələn həftə nazirlərlə görüşlər planlaşdırmağı tapşırıb. Nazirlər infeksiyanın yayılması tempini azaltmaq və ölkə iqtisadiyyatını iflic edən karantin tədbirlərini zəiflətmək üçün kütləvi test və diaqnostika proqramı üzərində çalışırlar.

## İmişlidə "QAZel" "Mercedes"lə toqquşub



İmişlidə yük maşını ilə minik avtomobili toqquşub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, hadisə rayonun Çahar kəndin ərazisində qeydə alınıb.

"QAZel" markalı yük maşını ilə "Mercedes" markalı minik avtomobilinin toqquşması nəticəsində İmişli rayon sakinləri - Elməddin Eyvazov və Nizami Xankişiyev müxtəlif dərəcəli bədən xəsarəti alıblar. Yaralılar Saatlı Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Faktla bağlı araşdırma aparılır.

# Əli Kərilmini Nelson Mnadelanı da ittiham edib?

## AXCP-nin hücumu, REAL-ın cavabı

***Uzun müddət idi aralarında sakitlik hökm sürən AXCP və REAL partiyası arasında yenidən savaş yelləri əsməyə başlayıb. Məsələ ondadır ki, bugünlərdə Ali Məhkəmənin Plenumu realçıların sədri İlqar Məmmədova və partiyanın idarə heyətinin üzvü Rəsul Cəfərova bəraət hökmü verib. İlk başdan onu da qeyd edək ki, belə bir qərarın verilməsi Azərbaycanda demokratik mühitin inkişafı, eyni zamanda aparılan siyasi islahatların nəticəsidir. Bütün bunlar öz yerində. Lakin mövzudan yayınmayaraq, qayıdaq Əli Kərimlinin və onun sosial şəbəkə trollarının İ.Məmmədovun partiyasına başlatdığı hücumlarının məqsədlərinə.***




Beləliklə, bəraət məsələsindən saatlar keçməmiş Ə.Kərimlinin təlimatına əsasən AXCP və “Milli Şura” tərəfdarlarının ittihamları yalnız köhnə “standartlarına” uyğun şəkildə səslənib. Guya REAL hakimiyyətlə anlaşmaya gedib, müxalifətə xəyanət edib və s. və i...

### REAL-çılar cəbhəçiləri “bəsit təfəkkürlülər” adlandırdı

Əslində bu gözlənilən idi. Hələ 2018-ci ildə sosial şəbəkədə Ə.Kərimli ilə İ.Məmmədov arasında reytinq müqayisəsi aparılarkən, REAL sədrinin AXCP sədrini üstələməsi vəziyyəti gərginləşdirmişdi. Məhz ondan başlayaraq, Ə.Kərimli İ.Məmmədovu və partiyasını özünə düşmən elan etmişdi. Amma onun bu kimi “qərarı” ümumiyyətlə, gündəmdə heç bir maraq oyatmadı. İctimai rəy də yaxşı bilirdi ki, bu Ə.Kərimlinin siyasi həyasızlıq nömrəsinin növbəti pərdəsidir.

REAL tərəfi də qarşı tərəfi cavabsız qoymur. Misal üçün, partiyanın icraçı katibi Natiq Cəfərli facebook səhifəsində paylaşdığı statusunda cəbhəçiləri bəsit təfəkkürlü adlandırıb. “Bu gün yenə cəmiyyətin bəzi üzvlərinin nə qədər bəsit təfəkkürlü olduğu üzə çıxdı”, yazan Cəfərli ifadələrində bir sıra əsaslar gətirərək sədrinin və partiyadaşının bəraət almasını müsbət qiymətləndirib.

### Rəsul Cəfərovdan AXCP və “Milli Şura”ya: “Nətər adamlar var ala...”

Rəsul Cəfərov da ilginc status paylaşıb və AXCP-”Milli Şura” tərəfdarlarının ittihamlarına cavab verib: “Yaxşı, bəs bu qədər vacib və önəmli qərarla bağlı söz atanlara nə deyəsən indi?! REAL olaraq özümüz bəyanat yaymışıq ki, hökumətlə dialoq vacibdir, danışmaq lazımdır - bəzi fikri olub beyni olmayanlar ağıllı poza alıb, “gördüz, REAL hökumətlə danışır”, yazırlar. A bala, özümüz deyirik də bunu, danışıqlar da vacibdir ki, ölkə sivilləşsin...”

Cəbhəçiləri köhnə təfəkkürdə ittiham edən REAL təmsilçisi yazır: “Dünyada yeni düzən yaranır, bəziləri isə hələ də 88-ci ildə qalıblar. Olmur e belə, olmur ay qardaş, olmur ay bacı, qarayaxmalardansa bir az zaman tanıyın, görün bu işləri necə aparılacaq və bunun vətənə-millətə xeyri nə olacaq. Yəni olmazmı belə yanaşasınız?! Nətər adamlar var ala..”.

### Natiq Cəfərli də cavabını gecikdirməyib: “Hakimiyyətlə, hökumətlə danışıqlar heç yerdə satqınlıq simvolu deyil”

Lakin Ə.Kərimlinin və ətrafının ən sərt və onları ələ salan cavabını yenə də N.Cəfərli verib: “Nelson Mandela 27 il türmədə yatdı. Çıxandan sonra hakimiyyətlə danışıqlar masasına oturdu və danışıqlar nəticəsində Cənubi Afrika Respublikasında yumşaq və sivil keçid baş verdi. Ümumiyyətlə, hakimiyyətlə, hökumətlə danışıqlar heç yerdə satqınlıq simvolu deyil. Bunu vaxtilə hakimiyyətlə danışıqlar aparanlar kompleksə çevirirlər. Cənubi Afrika Respublikasında AXCP-çilər olsaydılar, deyərdilər ki, Nelson Mandela satılıb”.

Göründüyü kimi, qaragüruhçu müxalifətin əsassız hücumlarına sivil müxalifətçilik mövqeyinə keçid edən və destruktivlikdən imtina edənlər heç də küyə getmədən cavab verirlər. Bu isə bir daha sübut edir ki, artıq küçə təfəkkürlü müxalifətin vaxtı çoxdan keçib və siyasi məzarlıqda yatmağının fərqinə varmır. Hər halda, AXCP-”Milli Şura”nın ittihamlarına REAL-çıların verdikləri cavablardan da bunu sezmək mümkündür...

***Rövşən NURƏDDİNOĞLİ***

# Sərdar Cəlaloğlu: “Əli Kərimli koronavirus şəraitində başına gələnlərdən siyasi reytinq düzəltmək istəyir”

***Görünür, artıq “müxalifət” deyilən düşərgədə son aylar bəşəriyyətin sınağa çəkildiyi belə bir məqamda yenə də Azərbaycan dövlətininq qətiyyətli və operativ fəaliyyət göstədiyi müsbət nəticələrə sosial şəbəkələrdən böhtandolu çıxışları müxalifət liderlərinin də əsəblərini gərildib.***



Xüsusilə, AXCP sədri Əli Kərimlinin “evdə qalla blokadaya” alındığını deməsi və düşərgə liderlərindən ona dəstək vermədiklərinə görə müxalifət partiyalarının hədəfə alınması ilə bağlı fikirlərinə biganə qalmayan ADP sədri Sərdar Cəlaloğlu bildirib ki, Əli Kərimli özü belə vəziyyətlərdə həmişə müxalifətin əməkdaşlıq təkliflərindən imtina edib: “Faktiki olaraq Əli Kərimli özünə qarşı olan təzyiqlərə siyasi karyerasını inkişaf etdirmək və yaxud müəyyənləşdirmək vasitəsi kimi baxıb. Əli Kərimlinin tutduğu xətt bundan ibarətdir ki, bütün müxalifətdən ayrılsın, özünü hakimiyyətin hədəfinə gətirsin. Bu, bir çox hallarda düşünülmüş şəkildə edilir. Məsələn, bir mitinq keçirir, orda bir neçə nəfər həbs olunursa, il boyu həmin o tutulanların azadlığı məsələsini gündəmdə saxlamaqla özü üçün bir siyasət qurur. Halbu ki, o mitinqin nə özünə, nə partiyasına, nə xalqa heç bir xeyri olmur. İndi də Əli Kərimli koronavirus şəraitində başına gələnlərdən siyasi reytinq düzəltmək istəyir”.

### “Əli Kərimli satqınlığına görə ona kimsi həmrəy ola bilməz”

ADP sədri, eyni zamanda, Əli Kərimlinin heç bir partiyanı müxalifət kimi qəbul etmədiyini, mövcud fəaliyyətini bu istiqamətdə qurduğunu deyib: “Axı sən həmişə satqınçılıq etmisən, həmçinin, Azərbaycanda heç bir partiyanı müxalifət kimi qəbul eləməmisən. Heç bir partiya ilə əməkdaşlıq eləmirsən. Yaxud, sən bu günə qədər hər hansı bir siyasi liderin, partiyanın başına gələn hadisə ilə bağlı hansı həmrəylik nümayiş etdirmisən ki, bu gün də başqa partiyalardan belə bir dəstək tələb edirsən. Qaldı ki, Əli Kərimlinin internetinin kəsilməsi, ondan qabaq isə tərəfdarlarının həbs olunması ilə bağlı, bir söz deyərdim etdiyin əmiəllərin bədəlidir. Bir də, bu qədər yalan olmaz. Hansı yolla sənə lazım olanlarla əlaqə yarada bilirsən?. Bəsdir, o qatar getdi... Əgər sən özün başqalarının səni müdafiə etməsi ilə maraqlanmırsansa, deməli sənin bu giley-güzarın da əsassızdır, reytinq üçündür. Bizim partiya onun katibəsi deyil ki, hər hərəkətinə qiymət versin, yaxud, bütün işlərimizi kənara atıb onun reklamı ilə məşğul olaq”.

S.Cəlaloğlu hesab edir ki, Əli Kərimli nə etdiyini yaxşı bilir və bu gün tərəfdarlarının başqa partiyaları tənqid etməsi də onun siyasətinin bir tərkib hissəsidir: “Fikir yaratmaq istəyir ki, bu radikal müxalifətdir, ondan başqa digər partiyalar hökumətin tərəfdarlarıdırlar, ondan başqa heç kəs müxalifət deyil. Halbu bu ki, sən gözünü yumubsan. Sənə başqa nə dəstək verə bilərəm. Gəlib sənə internet çəkəsi deyiləm ki. Əli Kərimli özünün başına gələnlərdən bir siyasi mazəmə düzəltməklə məşğuldur”.

S.Cəlaloğlu istər AXCP-nin, istərsə də Müsavatın 30 ildir ki mitinq deyə özlərini xalqa partiya kimi dəstəkləməyə çalışsalar da, xalqın inamına nail olmadıqlarını deyib: “Xalq 30 ildir inanıblar ki, bu gündədirlər də...İndiyə kimi hərəkatın qabağında kim gedib, Müsavatla AXC! 27 ildir nə edə biliblər, heç nə!. İndii də, “Milli Şura”nın 2+3 mitinqi. Onların elədiyi heç bir hərəkəti, hansı ad altında olursa olsun, Azərbaycan maraqlarına uyğun hərəkət kimi dəyərləndirmirəm, izləmirəm. Bunu anlamaq o qədər elementardır ki... Mən inanmıram ki, AXCP üzvləri hansısa müstəqil düşüncə qabiliyyətinə malikdir. Hamısı zombiləşib”.

### “Osmanqızı Tv Əli Kərimlinin tribunasıdır”

Xüsusilə, epidemiya zamanıda Sevinc Osmanqızının “Osmanqızı TV”-də Ə.Kərimlinin çıxışları ilə bağlı münasibət bildirərəkən “Osmanqızı TV Əli Kərimlinin tribunasıdır”, - deyib: “O Əlini söydürməyə çağırıb, tərifləməyə yox. Guya Əli Kərimli aydan arı, sudan duru mələkdir, yerdə qalanlar hamısı kələkdir?! Ay kommunistin qızı, sənin atan Ayaz Mütəllibovu müdafiə edib 20 yanvar hadisəsinin törədildiyi vaxt biz azadlıq uğrunda vuruşurduq. İndi biz olmuşuq qeyri-demokrat, sən olmusan demokrat?! Keçmiş kommunistin qızı ilə Əli Kərimlinin ittifaqı və Əli Kərimli haqqında deyilənlər sizcə təsadüfdür? Kiminsə Amerikada oturması o demək deyil ki, o, Amerika tərəfdən dəstəklənir. Rusiyanın maraqlarını müdafiə edən adamların çoxu amerikada, İngiltərədədir, Avropadadır. Sevinc Osmanqızı Azərbaycan jurnalistlərinin içərisində bacarığına qabiliyyətinə görə bəlkə də yüzüncüdür. Mən ona Karl Manxeyn deyirəm, deyir Makkeyn. Deyirəm Manxeyn, döndərib bir də deyir Makkeyn. Bu adam Karl Manxeyn kimi məhşur sosioloqun adını eşitməyib. Gəlib mənə sosiaologiyadan dərs deyir ki, sən niyə bunu eləmirsən. İndi gəlib mənə dərs deyir ki, niyə sosial şəbəkədə yoxsuz? Orda olsam məni söyəcəklər ha. Deyirəm sənə nə, mən səndən soruşuram ki, niyə ordasan? Sevinc Osmanqızı ağzına gələni danışa bilər, amma kütlə ona baxanda inanmalıdır. Bilirsiz burda bizim problemimiz nədədir? Bu adamlar özləri siyasi cəhətdən çox-çox zəifdirlər və kimlərəsə “ağıl” vermək istəyirlər. Ancaq xalq hər şeyi çox yaxşı bilir və görür. Belə çıxışlar isə, görünür hələ çox çəkəcək”.

***Rəfiqə HÜSEYNOVA***

## Binəqədidə ölümlə nəticələnən yol qəzası olub



Binəqədi rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Binəqədi qəsəbəsi ərazisində Bakı şəhər sakinləri A.Məmmədovun idarə etdiyi “Daewoo” markalı avtobusla Novruz Həsənovun idarə etdiyi “Mercedes” markalı avtomobil toqquşub. Nəticədə N.Həsənov aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Binəqədi Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Masallıda keçmiş məhkumdan narkotik vasitə götürülüb



Daxili işlər orqanlarının əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri qətiyyətlə davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş E.Soltanov Masallı Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılıb. Şəxsi axtarış zamanı ondan 440 qramdan artıq marixuana aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Müxalifətin fəaliyyəti erməni maraqları üzərində qurulub

*"Əli Kərimli erməni lobbisinin, anti-Azərbaycan dairələrin xidmətçisi kimi çıxış edir"*

Tarixin zibilliyinə atılmaq ərəfəsində olan dağıdıcı müxalif düşərgənin tör-töküntüləri müxtəlif çirkin vasitə və üsullarla siyasi fəaliyyətlərini uzatmağa çalışırlar. Bunu üçün ən absurd, eybəcər və məntiqdən kənar açıqlamalarla çıxış etməkdən, anormal addımlar atmaqdan çəkinmirlər. Söz yox ki, Azərbaycan cəmiyyəti erməni maraqlarına xidmət edən müxaliflərin bütün addımlarını həmişə qınayıb və indi də sərt şəkil də ittiham edir. Ümumiyyətlə Azərbaycan xalqı əlləri hər zaman xarici maraqlı dairələrin cibində olan AXCP, Müsavat kimi dağıdıcı xislətli partiyaların funksionerlərini yaxşı tanıyır. Hər kəs, çox yaxşı bilir ki, 1988-1992-ci illərdə məhz bu radikal qüvvələrin təmsilçiləri Azərbaycan xalqının üzləşdiyi faciələrin baş verməsində, xüsusilə də, siyasi alver predmeti olaraq ərazilərimizin hərraca qoyulmasında az rol oynamadılar. Onların antimilli fəaliyyəti sayəsində Azərbaycan xaos, anarxiya girdabına, cinayətkarlığın meydan suladığı məkana çevrildi. Bir illik hakimiyyətləri dövründə, ölkəmizin yeraltı-yerüstü sərvətləri qəddarcasına talan edildi. Nəhayət xalq bu talançılara öz layiq olduqları yeri göstərdi və onların hakimiyyətinə son qoydu. Xalq birlik və bərabərlik nümayiş etdirərək, Ulu Öndəri hakimiyyətə dəvət etməklə, ölkənin düşdüyü acınacaqlı vəziyyətdən, xaos və anarxiyadan çıxarılmasına, iqtisadi inkişafa, tərəqqiyə, möhkəm əsaslara malik sabitliyin yaranmasına nail oldu. Beləliklə də, bədxahların Azərbaycanın dövlət müstəqilliyinin məhv edilməsi arzuları alt-üst edildi. Bu gün də, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət ölkə Prezidenti İlham Əliyevin düşünülmüş, məqsədyölü siyasəti ilə davam etdirilir.

## Qara keşilər yenə də, iş başındadırlar

Ölkəmizin əldə etdiyi uğurlara, nailiyyətlərə qısqanclıqla yanaşan xarici maraqlı dairələr, sapı özümüzdən olan baltalardan istifadə etməklə, əldə olunan uğurlara kölgə salmağa cəhdlər göstərirlər. Xüsusilə də, koronavirus epidemiyasının dünyanı ağuşuna aldığı bir zamanda dağıdıcı müxalif ünsürlər sosial şəbəkələrdə milli və dövlətçilik maraqlarına ziddi olan açıqlamalarla çıxış edir, hədələyici iddialar irəli sürürlər. Sanki, bu ünsürlər insanları təhqir etmək, şər və böhtanlar səpləndirmək yarışına giriblər. Demək olar ki, hər saat da AXCP sədri Əli Kərimlini, Müsavat başqanı Arif Hacılını, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlini və onların xaricdəki "söyüş qurup"nun üzvləri olan Sevinc Osmanqızı, Qənimət Zahid, Arif Məmmədov və digərlərinin sosial şəbəkələrdə canlı yayımlara çıxaraq ağıllarına və ağızlarına gələni danışdıqlarını görmək olar. Bu da təbii olaraq Azərbaycan ictimaiyyətində onlara qarşı hiddət və qəzəbi daha da artırmış olur.

Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Növrzov dağıdıcı müxalif ünsürləri erməni lobbisinin "muzdlu ideoloji əsgərləri" adlandırb. Bildirib ki, onların sıralarına nəzər yetirərkən gözə çarpan ilk fiqurlardan biri keçmiş "diplomat" Arif Məmmədovdur: "Gəncədə doğulmuş bu şəxsin nənəsinin erməni olması aşkardır - heç kimə sirr deyil. Rus hərbi tərcüməçilik məktəbini bitirmiş Arif Məmmədov erməni qohumlarının köməkliyi ilə təhsil alıb və işə düzəlib. Heç bir bilik və bacarıq sahibi olmadığına görə həbəş dilinə yönləndirilib". S.Novruzovun sözlərinə görə, Arif Məmmədov er-



məni xislətini Ermənistanın terrorçu dövlət olmasını ört-basdır etməyə çalışmaqla, hətta bu məqsədinə çatmaq üçün Azərbaycan dövlətini ittiham etməkdə də göstərir: " Bu şəxs Azərbaycanı "İsraildən aldığı silahları Suriya və Liviyada Türkiyəyə qarşı vuruşan terrorçulara satmaqda" günahlandırmaqla həm də iki qardaş ölkə - bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə arasında nifaq toxumu səpməyə yönəlmiş çirkin təbliğat aparır. O, nə Ermənistanın terror dövləti olmasından, işğalçı - təcavüzkar siyasət həyata keçirməsindən danışır, nə də terrorist təşkilat "İŞİD" barədə - onun birdən-birə necə meydana çıxması və kimə xidmət etməsi haqqında bir kəlmə deyir. Azərbaycan və Türkiyənin münasibətlərinin pozulmasını istəyən, Ermənistanı müdafiə edən kimlərdir? Təbii ki, ermənilər və ermənipərəst dairələr. Elə Arif Məmmədov kimi xainlər də nənələrinin və babalarının xəyanətkar əməllərinə sadiq qalaraq bu cür fəallıq nümayiş etdirirlər".

YAP İcra katibinin müavini S.Novruzov onu da bildirb ki, aldığı tapşırıqlar və sifarişlər əsasında Azərbaycan dövlətinə qarşı çirkin təbliğat aparmaqla məşğul olan erməni xidmətçiləri sırasında Ramiz, Arif və Leyla Yunuslar da var: "Bu şəxslərin erməni kimlikləri aşkardır (bu barədə Rasim Ağayevin, Əlizadə qardaşlarının yazılarında kifayət qədər faktlar var). Ramiz, Arif və Leyla Yunuslarla bağlı qanuni təftiş zamanı onların dünyanın ayrı-ayrı ölkələrində, o cümlədən Göyçə gölünün kənarında 11 mülkünün ortaya çıxması da bir çox mətləblərdən xəbər verir. Ermənistan ərazisinə dövlətimizi məlumatlandırmadan və icazə almadan, yəni qeyri-qanuni surətdə keçərək işğalçı ölkədə təşkil olunmuş toplantılarda iştirak edən və Azərbaycan dövlətinin milli maraqlarına zidd, Ermənistanın isə mənafeyinə uyğun fikirlər səsləndirən bu şəxslərin siması və ya simasızlığı ortadadır. İndi Ramiz Yunus yaşadığı ABŞ-dakı və xidmət etdiyi Ermənistandakı pandemiya şəraitində acınacaqlı vəziyyəti kənara qoyaraq Azərbaycanı tənqid etməyə, ictimai rəyi çaşdırmağa çalışır. Amma xalqımız onun yalanlarına, qərəzli və məkrli fikirlərinə inanmır, çünki bu antimilli ünsürü danışdıran amilin onların erməni mənşələri və erməni lobbisinin maliyyəsi olduğunu yaxşı bilir".

Cəmil Həsənli ermənipərəst dairələrin dezinformatoru kimi çıxış edir

"Anti-Azərbaycan cəbhəsində dayananlar sırasında olan Cəmil Həsənli isə xalqı, hakimiyyəti və dövləti hədəf seçərək yalan tirajlamaqla məşğuldur" deyən S.Novruzov onu da bildirb ki, bu şəxs konkret olaraq ermənipərəst dairələrin qulluqçusu qismində dezinformator kimi çıxış edir: "Bir zamanlar Milli Məclisin üzvü olarkən büdcə müzakirələri, Nazirlər Kabinetinin hesabatları zamanı hökumətin işini yüksək qiymətləndirən, parlamentdə, eləcə də Təhsil Nazirliyinin kollegiya iclaslarında ölkəmizdə təhsilin inkişafı barədə tərif yağdıran, buna görə təhsil nazirindən "konvert" alan, cəmi 1 il parlament üzvü olduğu halda, Milli Məclisin deputatları üçün tikilmiş binada illərlə növbədə duran başqalarının haqqına girərək 4 otaqlı mənzil alan, keçmiş iqtisadiyyat nazirinin dəstəyi və maliyyəsi ilə yaşadığı binanın altında deputatların xeyir-şər mərasimləri üçün nəzərdə tutulmuş obyekti qeyri-qanuni şəkildə özəlləşdirərək mənimsəyən C.Həsənlinin indi haqqdan danışması, sadəcə olaraq, absurddur! Şəffaflıq və ədalətdən dəm vuran Cəmil Həsənlinin millət vəkili seçilmədikdən sonra yaşı uyğun olmadığı halda pensiya (deputatlıq təqaüdü) almaq üçün saxta yolla I qrup əlillik (gözdən) dərəcəsi alması isə onun hansı mənəviyyata sahib olduğunu aydın göstərir".

S.Novruzov bildirib ki, xəyanət və satqınlıq simvoluna çevrilmiş antimilli ünsürlərin başında gələnlər sırasında Əli Kərimli xüsusi yer tutur: "O, erməni lobbisinin, anti-Azərbaycan dairələrin xidmətçisi kimi çıxış edir. Hiyləgər planları ilə dostlarını, həmfikirlərini öz şəxsi ambisiyalarına və karyerasına qurban verən Ə.Kərimlinin hətta lider hesab etdiyi Əbülfəz Elçibəyin Türkiyədə müalicəsi üçün ayrılmış 150 min dolları, Çöhrəqaninin gözlərinin müalicəsi üçün Azərbaycanda toplanmış vəsaiti mənimsəməsi kimi faktlar onun mənəvi və siyasi əxlaqsızlığını aşkar nümayiş etdirir. Ermənilərdən pul alan, rəqiblərinin əleyhinə bütün separat danışıqlara gedən, sosial dəstəyə və elektorata malik olmadığına görə qorxudan heç bir seçkiyə qatılmayan, adı ictimai rəydə xəyanət və satqınlıq ifadələri ilə assosiasiya olunan Əli Kərimlinin indi "internet şousu" vasitəsilə özünü qəhrəmana çevirməyə, hakimiyyəti isə ləkələməyə çalışması cəhdləri cılız səylər kimi iflasa məhkumdur".

Bir sözlə faktlar təsdiq edir ki, müxalifətin dağıdıcı qanadı erməni lobbisinin təsiri altındadır. Məhz bütün mümkün vasitələrdən istifadə etməklə erməni ağalarının sifarişlərini yerinə yetirməyə çalışırlar. Ancaq yuxarıda qeyd etdiyim kimi, xalq müxalifətin satqın və xəyanətkar xislətə malik ünsür olduqlarını bilir. Bu baxımdan onların məkrli niyyətləri heç zaman baş tutmayacaq və bir gün tarixin zibilliyində əriyib gedəcəklər.

**İ.ƏLİYEV**



# Bəlkə kifayətdir a zombilər?

**RƏFİQƏ**

***Belə bir atalar sözü var: alim olmaq asandır, adam olmaq çətin. Ancaq bir məsələni vurğulamaq istəyirəm ki, bu ifadf o demək deyil ki, biz təhsilə, ziyalılara, alimlərimizə hörmətsiz yanaşırıq, əsla. Xalqımızın alimə, elm adamına, kitab əhlinə sevgisi olub , bundan sonra da olacaq. Ancaq neyləyək ki, Cəmil Həsənli kimilərin nə özünə, nə yaşına, nə başına, nə də əldə etdiyi "professorluğu", deputatlığı, var-dövləti gecə-gündüz böhtanlar yağdırdığı bu dövlətin sayəsində əldə etdiyini anlaya bilmir. Bir də, məgər hər insana "adam", yaxud da hər "başı" olan "alim" və "ağıllı" demək olar?.***

Düz 27 ildir ki, müxalifətin, daha dəqiq desək düşərgədə paslanmaları ötən müddət ərzində hələ də "adam" ola bilməmələri, əksinə zombiləşmələri kifayət qədər öz təsdiqini tapıb. Və elə buna görə də "adam" ola bilməyiblər ki, "lider" deyib yaxa-başlarını cıranlar haray-həşir salaraq stılmaqla öz erməniqulbeçələri olduqlarını göstərsələr də, bütün dünya ölkəmizin qəbul etdiyi yüzlərlə uğurlu reallıqları görür və bu xəsətə üfunət iyi verən düşərgə xəyanətkarları isə eşələnə-eşələnə qalırlar. Çünki bu xəyanətkarlar həm də dərdlərinə çarə tapılmayan viruslardır. Elə son aylar dünyanı ağuşuna alan koronavirus kimi bir epidemiyaya qarşı mübarizə aparan dövlət liderlərindən də güclü, hər bir sahədə düşünülmüş siyasət aparan Azərbaycan rəhbərinin ardıcıl addımlarının nəticəsində "Evdə qal" kampaniyasının nəticəsində insan tələfatı az olan birinci olmuşuq.

Ancaq bu bədbəxt Cəmil Həsənli kimi adam ola bilməyənlər bu reallığı hələ də anlamır və anlamayacaq da. Bir də nə etsinlər, onların xəstəlikləri o qədər inkişaf edib ki, hətta bir-birlərinə qarşı qorxu filmlərindəki zombilər kimi hücum edərək, qırışır, didişir, öcəşir və ... Sonra da düşürlər hakimiyyətin canına ki, bəs baş verən bütün uğursuzluqların səbəbi iqtidardır (?). Bir deyənləri yoxdur, ay "adam" olmağı bacarmayanlar, bir dəfə də əgər varsa, o papağınızı qoyun qarşınıza və fikirləşin ki, siz kimsiniz və xalq sizi niyə qəbul etmir? Nəyə görə artıq 27 ildir ki, eyni sözləri təkrarlayıb-durursunuz, hər seçkilərdə, ölkənin hər uğurunda, hətta bu günükü epidemiya şəraitində belə mitinq-mitinq deyə-deyə xalqın olan nifrətini daha artırırsınız. Elə zənn edirsiniz ki, hansısa media zombinizin hər dediyini qəbul edənlər var?

Ay bədbəxtlər, həqiqəti görməyən Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli və ... canlı ikən ölülər bu gün Azərbaycanda iqtisadi sahədə heç bir problem yaşanmır. İqtisadi inkişaf davam edir. Yaxşı, bəs nədir Sevinc Osmanqızı, Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli... kimi zombiləri narahat edən? Əslində məsələ bəllidir. Bu kimi digər "lider" zombiləri, ümumiyyətlə, ölkədə uğurları, xalqımızın rifahının günbəgün yüksək səviyyədə yaşamasını istəmirlər. Yalandırsa, onda ömrünüzdə bircə dəfə "kişilik", "cürət" tapıb birləşsinlər. Bu, qətiyyən olmayıb, olmayacaq da. Bu zaman daha bir sual: İstəmirlərsə, onda buralarda nə ...? Ümumiyyətlə, 27 ildir nə qələt edib "biz gəlirikərlə" insanların zəhləsini aparırsınız? Bəlkə kifayətdir a zombilər?

Bax, bu yerdə nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Vətən daşına, xalqına, əqidəsinə, məsləkinə dönük çıxanlar heç olmasa bu yaşınızda anlayın ki, ölkəmizi müstəqillik yolundan, güc və qüdrətli olmaqdan döndərmək mümkün deyil.

Və gec-tez etdiyiniz cinayətlərə görə cəzanızı qanun qarşısında alacaqsınız. Çünki antimilli, anti-Azərbaycan təbliğatları, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdləri, dələduzluqları və Vətənə xəyanət əməlləri uzun müddət davam edə bilməz!. Və tarix və onun canlı şahidləri Ə.Kərimlinin iblis xislətli hiylələrini, xəyanətlərini heç vaxt unutmayacaq, necə ki, bu gün hər şey üzə çıxır. Bəlkə kifayətdir a zombilər?

# Ermənilər sovet dövründə də azərbaycanlıların hüquqlarını pozurdular

***Ermənilərin əsrlərlə hazırladıqları planlarının həyata keçməsində 1917-ci ilin oktyabrında Rusiyada baş verən bolşevik çevrilişi və Sovetlər İttifaqının yaranmasının müstəsna rolu olmuşdur. İndiki Ermənistan ərazisində özlərinin dövlət strukturlarını yaradan ermənilərin qarşılarına qoyduğu başlıca məqsəd bu əraziyə başqa millətlərin nümayəndələrini bir daha buraxmamaq, digər tərəfdən isə həmin ərazilərdə olan başqa millətləri xüsusilə bu yerlərin əsil sahibləri olan azərbaycanlıları oradan sıxışdırıb çıxarmaq olmuşdur. Nəticədə bü gün Ermənistanı demək olar ki, təkcə erməni millətindən ibarət mono dövlətə çevirməyə müvəffəq olmuş ermənilər, xüsusilə onların dövlət və siyasi rəhbərləri utanıb-qızarmadan sübut etməyə çalışırlar ki, Ermənistan dünyanın ən beynəlmiləl ölkələrindən biridir və guya burada çoxlu millətlərin nümayəndələri yaşayır.***

Ataxan Paşayev yzır ki,indiki Ermənistan deyilən yerdən azərbaycanlıların qovulmasından söz düşəndə ermənilər sübut etməyə çalışırlar ki, guya Ermənistanda azərbaycanlılara münasibət həmişə yaxşı olmuşdur, azərbaycanlılar özləri orada yaşamaq istəməmişlər. Əslində isə indi Azərbaycan ərazisində yaşayan və hələ 1988-ci il hadisələrindən çox-çox əvvəllər Ermənistanı tərk etməyə məcbur olmuş minlərlə azərbaycanlı onlar üçün ermənilər tərəfindən yaradılmış dözülməz şəraitin acı nəticələri olaraq öz doğma ata-baba yurdlarını tərk etdiklərini deyirlər. Onların çoxu böyük əzab-əziyyətlə ali təhsil alıb Ermənistana qayıtdıqdan sonra onlara iş verilmirdi. Onlar hətta orta təhsilli deyil, ibtidai təhsilli erməninin rəhbərliyi altında işləməyə məcbur edilirdilər. Həmin az savadlı ermənilər ali savadlı azərbaycanlıları incidir, təhqir edir, elə dözülməz şərait yaradırdılar ki, onlar öz ərizələri əsasında işdən getsinlər. Ancaq ikiüzlü ermənilər bu gün onlara məxsus olan həyasızlıqla bunu həmişə təkzib etməyə çalışırlar. Tarixi faktlar, arxiv sənədləri isə bunun ruhiyyəsi haqqında yeni məlumatların, Leninakan, Yeni-Bayazid və Eçmiadzin qəzalarında da həmin əhval-ruhiyyənin artması, bununla əlaqədar köçmək əhval-ruhiyyəsinə səbəb olan, onu şərtləndirən halların açıqlanması üçün yeni faktların üzə çıxmasıdır. Köçmə üçün şərait yaradan səbəblər təhlil edilərkən əsas iki amilə diqqət cəlb edilirdi. Bir tərəfdən adamların köçüb getməyə həvəsi, digər tərəfdən isə köçmək üçün əsas olan konkret səbəblər. Maraqlıdır ki, burada azırbaycanlıların Ermənistandan köçməsini şərtləndirən başlıca amillər bir rayonun - Basarkeçər rayonunun timsalında bariz şəkildə izah edilirdi. Göstərilirdi ki, azərbacanlıların köçməsini şərtləndirən əsas amillər, məktəb, səhiyyə məsələləri, kənd təsərrüfatı vasitələri, onların təminatının yox dərəcəsində olması-dır. Digər tərəfdən isə köçmənin səbəbi kimi azərbaycanlılara qarşı Ermənistan SSR hakimiyyət orqanları nümayəndələrinin qeyri-səmimi münasibəti və onlara qarşı daşnak təbliğatında görülürdü.

Xülasədə göstərilirdi ki, Yeni-Bayazid qəzasının Basarkeçər sının Basarkeçər dairəsində də vəziyyət bundan yaxşı deyil. Burada Sovet və partiya aparatlarının olduqca zəif işi nəticəsində hələ 1927-ci ildə bir sıra kəndlər - Yarpızlı, Böyük Məzrə, Kalvank, Yuxarı Zağalı köçmək üçün ərizə vermişdilər. O vaxt, yəni 1927-ci ildə köçmək haqqında məsələ müvəqqəti olaraq unudulmuş, bir neçə vaxtdan sonra isə o daha da kəskin şəkildə yenidən qalxmışdır. Həmin dairəyə bir dəstə erməni qaçqınları gətirilərək azərbaycanlı əhalinin iradəsinin əksinə olaraq onlar azərbaycanlı əhalinin evlərində yerləşdirilmişlər. Azərbaycanlılara söz verilmişdir ki, iki aydan sonra ermənilər yeni evlərə köçürüləcəklər. Bu vəziyyət hər iki tərəf üçün, əsil məşəqqət idi. Erməni qaçqınları demək olar ki, hər yerdə əvəzsiz olaraq azərbaycanlıların özləri üçün tədarük etdikləri qış yanacaqlarından istifadə edirdilər.

Elə hallarda olmuşdur ki, boş yeri olmayan azərbaycanlıları məcbur etmişlər ki, "bir təhər sıxlaşsınlar" və öz evlərində erməni qaçqınlarını yerləşdirsinlər. Məsələn, Böyük Məzrə kəndində




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

əksini sübut edir. Beləki Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivində mühafizə olunan bir iş1 Sovet hakimiyyəti illərində Ermənistan SSR-də hökumət idarələrinin və daşnak xislətli erməni əhalisinin burada yaşayan azərbaycanlıların başına müxtəlif şəkildə açdıqları oyunlardan, onların sıxışdırılmasından, son nəticədə isə onların məcbur olaraq Ermənistanı tərk etmələrindən bəhs edir. Bu Zaqafqaziya Federasiyası Xalq Komissarları Soveti yanında Dövlət Siyasi İdarəsinin üç Zaqafqaziya Respublikalarında - Azərbaycan, Gürcüstan və Ermənistanda siyasi vəziyyət haqqında xülasələrdən bir nüsxədir. 1929-cu il yanvar ayının 1-də olan və həmin il yanvarın 30-da Azərbaycan K(b)P MK katibləri Ə.H.Qarayev və L.Mirzoyanın adına göndərilmiş həmin xülasədə digər məsələlərlə yanaşı Ermənistan SSR-də azərbaycanlılara qarşı yaradılmış dözülməz münasibətlər haqqında da ətraflı məlumat verilir. Burada Ermənistan SSR-ə aid xülasədə azərbaycanlılar arasında Ermənistandan köçmək əhval-ruhiyyəsinin çox böyük olduğu bildirilirdi. Lori-Pəmbək qəzasının Ağbaba rayonunda köçmək əhval-dairəsindəki 15 min müsəlman əhalisi olan 32 kənddə cəmi bir pilləli 16 məktəb və iki qiraətxana var. Bütün məktəblər ən adi avadanlıqdan belə məhrumdurlar. Bir dənədə olsun yeni məktəb binası yoxdur. Demək olar ki, bütün məktəblərin pəncərə şüşələri yoxdur, divarlar çat-çatdı. Pedaqoji personalın ictimai-siyasi və pedaqoji hazırlıq səviyyəsi olduqca aşağı səviyyədədir. Göstərilirdi ki, Basarkeçər dairəsində yalnız 13 çarpayılıq bir xəstəxana və 1 ambulatoriya var. Ambulatoriyanın çox vaxt bağlı olduğu, qışda isə kəndlərə yollar kəsildiyi üçün kəndlilər ambulatoriyaya ümumiyyətlə gələ bilmirlər. Ataxan Paşayevin fikrincə, azərbaycanlılar yaşayan kəndlərdə bir ədəd də olsun taxıl biçən, sovuran və toxumsəpən maşın yoxdur. Bu kəndlərin aldıqları traktor və kotanlar isə ya ümumiyyətlə heç nəyə yaramır, ya da saz vəziyyətdə deyil. Azərbaycanlı əhalinin məskunlaşdığı rayonların partiya komitələrində azərbaycanlı təlimatçılar çatışmır. İrəvan qəzası Razdan dairəsində milliyyətcə erməni olan, azərbaycan dilini zəif bilən təlimatçı azərbaycanlılarla olduqca kobud rəftar edir. Xülasədə göstərilirdi ki, Yeni Bayazid qəza-azərbaycanlıların onsuzda yaşamaları üçün darısqal olan evlərinə əlavə iki qaçqın erməni ailəsi də yerləşdirimişdir. Nəticədə azərbaycanlı ailəsi məcbur olur ki, qonşudan ayı 18 manata ev kirayə edib, orada qaçqın erməni ailələrini yerləşdirsinlər. Başqa bir halda isə azərbaycanlı ailəsi məcbur olaraq hökumət dairələrinə müraciət edirdi ki, ona tikinti materialları versinlər ki, o,öz gücü və vəsaiti hesabına qaçqın ermənilər üçün ev tiksin və bununla da onun evinə yerləşdirilmiş erməni qaçqınlardan canını qurtarsın. Vergi siyasətində də azərbaycanlı ailələr üçün bilərəkdən dözülməz şərait yaradılmışdır. Xülasədə qeyd olunurdu ki, Voronsovski dairəsinin azərbaycanlılar yaşayan onlarla kəndində bu il keçən ilə nisbətən vergilərin məbləği 105 faiz artırılmışdır. Həm də ayrı-ayrı ortabab kəndli təsərrüfatlarına 1928-1929-cu təsərrüfat ilində qoyulmuş verginin məbləği birin üçə nisbətində artırılmışdır. İrmazlo kəndindəki 85 təsərrüfatdan 25 faizinin üzərinə xüsusi vergi qoyulmuşdur. Bir sıra yoxsul kəndli təsərrüfatlarına da böyük məbləğdə vergilər qoyulmuşdur. Xülasədə göstərilirdi ki, eyni vəziyyətə Ermənistandakı azərbay-canlılar yaşayan digər kəndlərdə də rast gəlinir.

Xülasədə sonra deyilirdi ki, bütün bunlara yerli hakimiyyət orqanlarının azərbaycanlı əhaliyə qarşı kobud rəftarını da əlavə etmək lazımdır. Yeni Bayazid qəzasında yuxarı Zağalı kəndinə qəza prokuroru və dairə icraiyyə komitəsinin sədri (hər ikisidə Ermənistan K(b) P-ın üzvüdür) gəlirlər. Azərbaycanlı kəndlilər onlara müraciət edərək Azərbaycana köçməyə icazə verməyi xahiş edirlər. Əvvəlcədən işin mahiyyətinə əhəmiyyət verməyən icraiyyə komitəsinin sədri deyir: "Di köç get öz yerinə". Bir dəqiqə keçdikdən sonra isə fikirləşərək yenidən: "Burada gəbərəcəksən, amma köçməyi görməyəcəksən" - deyir. Onda kəndli kömək üçün qəza prokuroruna müraciət edir, prokuror isə onu hətta eşitmək belə istəməyərək deyir: "Mən sizin prokuror deyiləm. Sizin prokuror Azərbaycandadır".

Xülasədə göstərilirdi ki, bu cür qeyri sağlam mühitdə narazılıq sürətlə artır. Orada qeyd olunurdu ki, hazırda Leninakan qəzasının Ağbabalı dairəsində, Yeni Bayazid qəzasının Basarkeçər dairəsində, bütün Lori-Pəmbək qəzasında, İrəvan və Eçmiadzin qəzalarının ayrı-ayrı dairələrində köçmək əhval-ruhiyyəsi azərbaycanlı kəndlilərin bütün təbəqələrini bürümüşdür. Azərbaycanlı kəndlər arasında köçmək əhval-ruhiyyəsinin yaranmasında erməni kəndlərindəki daşnak emissarları və şövinist əhval-ruhiyyəli ünsürlərin təbliğatı da az rol oynamır. İrəvan qəzasının Qara Dəvəli kəndində 2 nəfər daşnak tanış azərbaycanlıları inandırmağa çalışırdılar ki, nə qədər gec deyil Ermənistandan köçüb getsinlər, "yoxsa tezliklə ölkə daşnaklar tərəfindən zəbt olunacaq və bütün azərbaycanlılar qılıncdan keçiriləcəklər". Xülasədə qeyd olunurdu ki, bu cür təbliğatdan qorxuya düşən bir neçə azərbaycanlı ailəsi Naxçıvan vilayətinə köçmüşlər. Bu haqda xəbər tezliklə qonşu Eçmiadzin qəzasına da yayılır, bir sıra kəndlərdə də (Taqi, Nazrav, Part) azərbaycanlılar Türkiyəyə köçməyə hazırlaşırlar. Xülasənin bu məsələyə aid bölməsinin sonunda deyilirdi ki, "beləliklə Ermənistan SSR-də azərbaycanlılara qarşı yaradılmış obyektiv şərait azərbaycanlı kəndlilər arasında real köçmək əhval-ruhiyyəsi yaradır".

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosen**

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

25 aprel

Son səhifə

## Koronavirusa yoluxanlar oruc tuta bilərmi? - Mütəxəssislər açıqlayır



**_Ramazan ayının koronavirusun yayıldığı dövrə təsadüf etməsi bir çox suallar yaradıb. Bu suallardan biri də koronavirusa yoluxub daha sonra sağalmış birininoruc tuta bilib-bilməməsi ilə bağlıdır._**

Mütəxəssislər şəkər, böyrək, qaraciyər və digər xroniki xəstəlikləri olan, 65 yaşdan yuxarı risk qrupuna daxil insanların, həmçinin, immun sistemi zərər görmüş şəxslərin oruc tutmamasını tövsiyə edir.

Koronavirusa qarşı immun sisteminin güclü olması ən böyük silahdır. Buna görə də sağlam qidalanma, meyvə-tərəvəz, taxıl və ət məhsullarını balanslaşdırılmış şəkildə qəbul etmək məsləhət görülür. Lakin burada insanların peşə və həyat tərzlərinin nəzərə alınması da önəmlidir. Məsələn, mütəxəssislər bildirir ki, ağır işdə çalışanlar və tibb işçiləri dini vəzifələrini fərqli yollarla yerinə yetirə biləcəklərini bildirir.

Bundan başqa, koronavirus infeksiyasına qalib gəlmiş, lakin karantin müddəti davam edən şəxsin həkim tərəfindən ac qalması uyğun görülürsə, oruc tuta bilər. Lakin bu vəziyyət immun sisteminə görə dəyişə bilər.

Uzun müddət ac qalmaq immuniteti zəifledirmi?

Bu istiqamətdə aparılan araşdırmalar kifayət qədər olmadığı üçün elm adamları konkret fikir irəli sürmür. Lakin nizamlı və sağlam qidalanan insanların immun sisteminin digərlərinə nisbətən daha möhkəm olması artıq sübut olunmuş faktdır./publika.az

## Arda Turan: “Mən bitməmişəm, niyə bitim ki?”



**_“Başakşəhər”dən ayrıldıqdan sonra komandasız qalan Arda Turan Türkiyə millisinin baş məşqçisi Şenol Güneşin onun haqqında dediyi fikrə münasibət bildirib. Hazırda müqavilə ilə İspaniyanın “Barselona”klubuna məxsus olan türkiyəli futbolçu, onu “bitirmək” istəyənlərə cavab verib._**

Türkiyə mətbuatının yazdığına görə o, 67 yaşlı çalışdırıcının “dünya markası Arda Turanı birlikdə bitirdik” sözlərinə cavab olaraq deyib: “Şenol Güneş mənə dəstək olmaq istədi, amma hamı eyni sözlər haqda danışdı. Mən bitməmişəm, niyə bitim ki? Bu ayaqlar, bu oyun zəkası hələ də məndədir. 2 ay məşq etdikdən sonra çıxıb ən yaxşı oyunumu göstərə bilərəm. Təcrübəmlə bunu bacara bilərəm”.

## QORXUNC AÇIQLAMA: Ölümlər ikiqat arta bilər




**_Koronavirus pandemiyasının tədarük və paylama zəncirinə verdiyi zərər qızdırma epidemiyası ilə aparılan mübarizəyə mənfi təsir göstərir. Buna görə də epidemiyanın səbəb olduğu hazırkı ölüm rəqəmləri ikiqat arta bilər._**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Afrika Bölgəsi direktoru Matşidiso Moeti deyib. Mətbuat konfransında çıxış edən Moeti bütün ölkələri qızdırma xəstəliyi ilə mübarizəyə dəstək verməyə çağırıb.

Onun sözlərinə görə, ötən həftə ABŞ-ın ÜST-ə maliyyə yardımını kəsməsi Afrika qitəsində uşaq iflici, qızdırma və QİÇS kimi xəstəliklərə qarşı verilən mübarizəyə faciəvi şəkildə zərər vuracaq. ÜST-ün statistikasına görə, 2018-ci ildə Afrikada 360 min nəfər qızdırmadan dəyişib.

## Və... Ronaldo qayıdır!



**_“Yuventus”un futbolçusu Kriştiano Ronaldo gələn həftə İtaliyaya qayıtmağa hazırlaşır. Qol.az “Daily Mail”ə istinadən xəbər verir ki, portuqaliyalı hücumçu və digər legionerlər ölkəyə qayıtdıqdan sonra 14 gün müddətinə karantin rejimində olmayacaq._**

Turin klubu məşqlərə mümkün qədər tez başlamaq üçün bütün futbolçularını koronavirus testindən keçirəcək. Hər oyunçuya 2 testin edilməsi planlaşdırılır. Qeyd edək ki, Ronaldo hazırda ölkəsindədir.

## Məşhur bloqer Demet Akalını qəzəbləndirdi!



**_Türkiyənin məşhur bloqeri Şeyma Subaşının sosial mediada paylaşdığı videobaşına bəla olub. Şeymanın “Türkiyə yeməkləri italyan yeməkləri ilə rəqabət apara bilməz. İtalyan mətbəxi dünyanın ən yaxşısıdır” fikri qalmaqallı müğənni Demet Akalının səbrini daşırıb. Belə ki, sənətçi bloqerin rəsmi “YouTube” hesabında yayımladığı “Şeyma və Quido - Karantində bir gün” videosuna kəskin şəkildə etirazını bildirib. Demet Akalın Subaşıya “Ağzınızın dadını bilsəydiniz, burnunuzun ucunu yeyərdiniz” sözləri ilə sərt reaksiya verib. Tək D.Akalın deyil, Ş.Subaşının izləyiciləri də bloqerin italyan mətbəxini tərfiləməsini birmənalı qarşılamayıblar. Onlar məşhuru tənqid atəşinə tutublar._**

## DİN: Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər saxlanılıb




Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 15 cinayətin üstünü “isti izlər”lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış dörd cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə doqquz nəfər, o cümlədən borclu şəxs qismində axtarılan üç nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb.

Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 10 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 25 nəfər saxlanılıb.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600